www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12-14 aprel 2025-ci il Şənbə № 61 (8671) Qiymətı 60 qəpik

**Xəbər**

## Xəbərdarlıq: yağ alarkən bunlara diqqət edin!

yazısı səh.13-də

**Gündəm**

### İlham Əliyev Antalyada mühüm görüşlər keçirdi



Azərbaycan Prezidenti Türkiyə, Suriya və Şimali Kipr liderləri ilə bir araya gəldi - Təfərrüat

yazısı səh.3-də

### İrəvandan şok terror hədəsi - Bakıdan xəbərdarlıq

yazısı səh.6-da

### Türk liderlər Ermənistanla sərhədə gəlir

yazısı səh.9-da

### Bakıdakı "Nürnberq prosesi" bu tarixdə bitəcək

yazısı səh.4-də

### İrəvandan mina xəritələri ilə bağlı qəribə təklif

yazısı səh.9-da

### Moskvada üç liderin görüşü olacaq iddiası

yazısı səh.6-da

### Milli Məclisdən qanunlara mühüm dəyişikliklər - detallar

yazısı səh.10-da

### ABŞ-ın ən güclü silahı - Trampın blefi, yoxsa...

yazısı səh.11-də

### Evdən qaçan yeniyetmələr - Bu hallar niyə artıb?

yazısı səh.15-də

### Hərbi forma geyinməyə xüsusi günlərdə icazə veriləcək

yazısı səh.2-də

### Azərbaycanın valyuta ehtiyatları: Proqnoz nikbindir, reallıq isə...

yazısı səh.14-də

# TRAMPIN ƏLİYEVƏ MƏKTUBUNDAKI AÇAR CÜMLƏ...

Ağ Ev rəhbərinin ikinci prezidentliyi dövründə Bakıya ilk məktubunda diqqətçəkici məqamlar; İsraillə bağlı xüsusi vurğu nəyin anonsudur?



yazısı səh.8-də

## Əhalini ən çox aldadan şirkətlər - "Kontakt Home", "Baku Electronics" və...

Ölkədə son 5 ilin şikayət palitrasındakı mağazalar şəbəkəsinin adları; mütəxəssislər istehlakçılara çağırış etdi

yazısı səh.12-də



### Pezeşkian Azərbaycanda hansı dildə danışacaq? - Açıqlama

yazısı səh.7-də



Mikayıl İsmayılov

### Sabiq məmurun oğlu aliment ödəmir

yazısı səh.12-də



*Kamran Əsədov:*

### "Ölkədə repetitorluq o halda ləğv ediləcək ki..."

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025



## Türk Kiprinin prezidenti Azərbaycana gələcək

**Kuzey Kıprıs Türk Cümhuriyyətinin Prezidenti Ərsin Tatar bu il sentyabrın ilk həftəsində Azərbaycana səfər edəcək. Musavat.com xəbər verir ki, o bu barədə jurnalistlərə açıqlamasında məlumat verib.**

Ə.Tatar Prezident İlham Əliyevin aprelin 11-də Antalyada keçirdikləri ikitərəfli görüş zamanı onu Azərbaycana səfərə dəvət etdiyini bildirib:

"Azərbaycanla milli dəyərlərimizi, könül bağlarımızı, hər cür mədəni zənginliyimizi bölüşmək istəyirik. Şimali Kipr hökuməti olaraq "Bir millət, üç dövlət" anlayışına sahibik. Bu anlayış çərçivəsində aramızdakı iqtisadi, ticari, turizm sahələrində güclü əlaqələr var. Azərbaycanlı deputatların Şimali Kiprə gəlməsi, bizim məclis üzvlərimizin Azərbaycana səfəri çox önəmlidir".

## Sahibkarlar bu məsuliyyətdən azad edilir

**Azərbaycanda nisyə mal alqı-satqısı ilə məşğul olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər kredit tarixçələrini təşkil edən məlumatı fəaliyyətdə olan ən azı bir kredit bürosuna təqdim etməklə bağlı məsuliyyətdən azad ediləcək. Bu, Milli Məclisin iclasında müzakirə edilən İnzibati Xətalar Məcəlləsində və "Kredit büroları haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb. Layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.**

## Azərbaycanda dövlət işçilərinin sayı azalıb

**2025-ci il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1758,8 min nəfər olub, onlardan 878,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 880,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Bu barədə Dövlət Statistika Komitəsi xəbər verib. Qeyd edək ki, 2024-cü ilin mart ayının 1-i ilə müqayisədə ölkədə dövlət sektorunda çalışanların sayı 21.2 min azalıb, özəl sektorda çalışanların sayı isə 52.8 min nəfər artıb.**

## Kəlbəcər sakini bıçaqlandı

**Kəlbəcər rayon sakini Gəncə şəhərində bıçaqlanıb. Teleqraf-ın yerli bürosunun məlumatına görə, insident Kəlbəcərdən olan məcburi köçkünlərin məskunlaşdığı Gülüstan qəsəbəsində baş verib. İlkin məlumata əsasən, 1978-ci il təvəllüdlü Namiq Abbasov çənə nahiyəsindən bıçaq xəsarəti alıb. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub. Faktla bağlı araşdırma aparılır.**

## Gəncədə 25 yaşlı oğlan siçan dərmanı içdi

**Gəncədə zəhərlənmə faktı qeydə alınıb. "Unikal"ın məlumatına görə, şəhər sakini 2000-ci il təvəllüdlü E.Aslanov zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Dərhal oğlana yardım edilib. Məlumata görə, E.Aslanov siçan dərmanından zəhərlənib. Səbəb isə pul borcu olması olub. Faktla bağlı araşdırma aparılır.**

## Qubad İbadoğlunun qardaşı polis nəzarətinə verildi

**İqtisadi Tədqiqatlar Mərkəzinin sədri Qalib Toğrul cinayət məsuliyyətinə cəlb olunub. Onun barəsində "polisin nəzarəti altına vermə" qətimkan tədbiri seçilib.**

Qeyd edək ki, hazırda "QHT işi" üzrə bir neçə nəfər istintaqa cəlb olunub, Cinayət Məcəlləsinin 192.2.2, 213.1, 308.2 və digər maddələri ilə istintaq hərəkətləri davam etdirilir. Qalib Toğrul bir müddət öncə ev dustaqlığına buraxılan iqtisadçı Qubad İbadoğlunun qardaşıdır.

# Hərbi forma geyinməyə xüsusi günlərdə icazə veriləcək



**Ehtiyata və ya istefaya buraxılan şəxslərin hərbi formalarını hansı günlərdə daşıya biləcəklərinə dair qaydalar müəyyənləşir.**

Musavat.com xəbər verir ki, bu məsələ Milli Məclisin bu gün keçirilən plenar iclasında müzakirə olunan "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Təklif edilən dəyişikliyə əsasən, həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxslər həmin geyim formasını yalnız rəsmi dövlət olunduqları dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan tədbirlərdə, ehtiyata və ya istefaya buraxıldıqları dövlət orqanının (qurumunun) əməkdaşlarının peşə bayramı günlərində, habelə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü"ndə, "Zəfər Günü"ndə və "Azərbaycan Respublikasında Anım Günü"ndə daşıya bilərlər.

## Bu gün və sabah hava şəraiti belə olacaq

**Aprelin 12-13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətinin Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova məlumat verib. O bildirib ki, sabah səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 6-8°, gündüz 12-16° isti olacaq. Bölgələrin bəzi yerlərində arabir yağıntılı hava şəraiti davam edəcək. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə isə qar yağacağı ehtimal olunur.**

Gündüz saatlarında yağıntıda fasilə olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 15-19° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

## "TikTok"da dələduzluq edən falçılar saxlanıldılar




**Sosial şəbəkələrdə fala baxmaq adı altında dələduzluq edən şəxslər saxlanılıblar. Musavat.com DİN-ə istinadən xəbər verir ki, sosial şəbəkələrdə "falçılıq", "baxıcılıq" və digər adlar altında paylaşımlarla vətəndaşların aldadılaraq pul vəsaitlərinin mənimsənilməsi ilə bağlı polis orqanlarına daxil olan müraciətlər diqqət mərkəzində saxlanılmaqla araşdırılır:**

"Belə ki, paytaxt sakini olan bir kişi fala baxdırmaq üçün "TikTok" sosial şəbəkəsində bu barədə elan yerləşdirən səhifələrdən birinə müraciət edib. Ardınca həmin səhifədən ona cavab yazılaraq əlaqə nömrəsi istənilib. İki qadın onunla danışaraq yalan vəd verməklə 500 manat pul istəyiblər. Qarşı tərəfin istədiyi məbləği kart hesabına köçürdükdən sonra isə həmin nömrəyə zəng çatmayıb və səhifə bloklanıb. Zərərçəkən şəxs dələduzluqla üzləşdiyini anlayandan sonra polisə müraciət edib".

Suraxanı RPİ-nin 32-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində fala baxmaq adı altında dələduzluq edən 46 yaşlı G.Mirzəyeva və 24 yaşlı Ə.Abbasova saxlanılıblar. Araşdırma aparılır. "Sosial şəbəkə istifadəçilərinə müraciət edərək bir daha bildiririk ki, bu tipli elanlarla rastlaşan zaman heç bir halda ödəniş etməsinlər və şəxsi məlumatlarını tanımadıqları şəxslərlə paylaşmasınlar", - DİN-dən bildirilib.

## AFFA prezidenti millidən narazıdır

**"Azərbaycan yığmalarının, xüsusən əsas milli komandanın nəticələrindən razı deyilik". Musavat.com xəbər verir ki, bunu AFFA-nın prezidenti Rövşən Nəcəf qurumun növbəti konfransında deyib. O, baş məşqçi Fernandu Santuşla görüşdükləri və nəticələrdən narahatlıqlarını diqqətə çatdırdıqlarını söyləyib. Nəcəf AVRO-2028-ə vəsiqə hədəfinin dəyişməz olaraq qaldığını əlavə edib. AFFA prezidenti gedişatdan asılı olaraq, müəyyən qərarlar qəbul edəcəklərini istisna etməyib. O, U-21 yığmasının və qadınlardan ibarət milli komandanın son nəticələrinin gələcəyə ümid verdiyini də diqqətə çatdırıb.**

## Xanlar Vəliyevlə bağlı qərar verildi

**Xanlar Vəliyev Konstitusiya Məhkəməsinin hakimi təyin olunub. Musavat.com-un xəbərinə görə, bu barədə təqdimat Milli Məclisin iclasında müzakirəyə çıxarılıb. Layihə səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edilib. Qeyd edək ki, Xanlar Vəliyevin hərbi prokuror kimi səlahiyyət müddəti başa çatıb. Konstitusiya Məhkəməsinin hakimləri Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Milli Məclis tərəfindən təyin olunur.**

## Gədəbəydə ana və qızı döyülüb

**Gədəbəydə döyülmə faktı qeydə alınıb. APA-nın yerli bürosunun məlumatına görə, hadisə rayonun Söyüdlü kəndində qeydə alınıb. 1983-cü il təvəllüdlü İ.Mürsəlova və övladı 2007-ci il təvəllüdlü N.Mürsəlova döyülərək xəsarət alıb və xəstəxanaya yerləşdiriliblər. Məlumata görə, İ.Mürsəlova qaynatası və baldızı tərəfindən döyülüb. Faktla bağlı araşdırma aparılır.**

## Tovuzda 5 şagird tüstüdən zəhərlənib

**Tovuzda tüstüdən zəhərlənmə hadisəsi baş verib. Musavat.com-un məlumatına görə, hadisə rayonun Düzcırdaxan kənd tam orta məktəbində qeydə alınıb. Məktəbin 5 şagirdi zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdiriliblər. 5 nəfər (məktəbli) Tovuz rayonu Mərkəzi Xəstəxanasının Təcili yadım şöbəsinə hospitalizasiya olunub. Onlara dəqiqləşməmiş tüstü zəhərlənməsi diaqnozu təyin edilib. Onların hər birinə zəruri tibbi xidmətlər göstərilib. Hazırda vəziyyətləri qənaətbəxş qiymətləndirilir.**

## GDU əməkdaşı intihara əl atdı

**Gəncədə qadın özünə xəsarət yetirib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə Gəncə Dövlət Universitetinin əsas binasında qeydə alınıb. 1988-ci il təvəllüdlü G.Məmmədova qolunun kəsilmiş yarası ilə xəstəxanaya yerləşdirilib, ona tibbi yardım edilib, vəziyyətinin kafi olduğu bildirilir. Məlumata görə, G.Məmmədova GDU-nun dəftərxanasının əməkdaşı olub. Onun özünə xəsarət yetirməsinə səbəb isə xəbərsiz işdən çıxarılmasıdır. Hadisə yerinə polis əməkdaşları cəlb olunub.**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

**Aprelin 11-də Türkiyədə IV Antalya Diplomatiya Forumu (ADF2025) işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. "Yeni Müsavat"ın siyasət şöbəsi xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi və Türkiyənin Xarici İşlər Nazirliyinin (XİN) ev sahibliyi ilə keçirilən tədbir bu il "Parçalanan dünyada diplomatiyaya sahib çıxmaq" mövzusunu əhatə edir. Dörd mindən çox qonağın qatılacağı ADF2025-də dünyanın 140-dan çox ölkəsindən 20-dən artıq dövlət və hökumət başçısının iştirakı nəzərdə tutulur. Tədbirdə 50-dən çox ölkə xarici işlər nazirləri də daxil olmaqla, 70-dən artıq nazirlə təmsil edilir. Foruma həmçinin təxminən 60 yüksəksəviyyəli beynəlxalq təşkilatın nümayəndələri qatılır.**



# İlham Əliyev Antalyada mühüm görüşlər keçirdi

## Azərbaycan prezidenti Türkiyə, Suriya və Şimali Kipr liderləri ilə müzakirələr apardı, dövlət başçısı Əhməd Əl Şaraanı Bakıya dəvət etdi; forumda Güney Qafqazda sülh mesajları verildi

Üç gün davam edəcək tədbirdə müxtəlif coğrafiyaları əhatə edən məsələlər, o cümlədən iqlim dəyişikliyi, terrorizmlə mübarizə, humanitar yardım, rəqəmsallaşma, ərzaq təhlükəsizliyi və süni intellekt kimi qlobal gündəmin önəmli mövzularının müzakirə ediləcəyi 50-dən çox sessiyanın keçirilməsi nəzərdə tutulur.

Forumda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarla görüşüb. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib. Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlət başçısı Antalya Diplomatik Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Eyni zamanda, Azərbaycan Prezidenti Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə də görüşüb. Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik etdi. Dövlət başçısı deyib ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib. Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bu ölkənin bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd edib. Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd edib. Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici faktorların bu məsələyə təsirindən narahatlığını vurğulayıb. Söhbət zamanı, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulub. Görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunub. Dövlət başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib. Görüşdə Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsi müzakirə edilib.

Forumda dəvətli qonaq qismində iştirak edən "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlunun verdiyi məlumata əsasən, panel müzakirələrində Kipr Türk Cümhuriyyəti prezidenti Ersin Tatar da iştirak edib. O, Kipr probleminin həlli mövzusuna həsr olunmuş panelə qatılaraq ingilis dilində çıxış edib və bu məsələdə öz baxışlarını bölüşüb.

Forumun moderatoru Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktay olub. Müzakirələrdə Azərbaycan deputatları da daxil olmaqla, bir sıra ölkələrin parlamentariləri, siyasətçiləri və ekspertləri iştirak ediblər. Deputat Ramil Həsən və Qərbi Azərbaycan İcmasının rəhbəri, millət vəkili Əziz Ələkbər Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq, xüsusilə Qərbi azərbaycanlıların tarixi torpaqlarından zorla köçürülməsi, bu prosesdə baş verən qətliamlar və sürgünlər barədə ətraflı məlumat veriblər. Onlar çıxışlarında vurğulayıblar ki, bütün savaşların sonunda sülh və diplomatiya qaçılmaz olur:

"Bugünkü reallıq da onu göstərir ki, Ermənistan-Azərbaycan münasibətləri hazırda məhz danışıqlar və diplomatik proses mərhələsindədir. Bu isə bir daha göstərir ki, diplomatiyanın və parlamentlərarası dialoqun rolu son dərəcə önəmlidir."



Deputat Əziz Ələkbər çıxışında Qərbi azərbaycanlıların məsələsinin tarixi, bugünkü mərhələsi və gələcəyi ilə bağlı fikirlərini də iştirakçılarla bölüşüb. Daha sonra forum öz işinə başlayıb və açılış edilib.

"Fövqəladə proseslərin baş verdiyi bir dövrdə Antalya Diplomatik Forumunu keçiririk". Antalya Diplomatiya Forumunun rəsmi açılış mərasimində Türkiyə xarici işlər naziri Hakan Fidan bildirib. Hakan Fidan deyib ki, bu Forum dünyanın müxtəlif qütblərini bir araya gətirməkdədir: "Bu forum qısa müddətdə dünyada mötəbər bir platformaya çevrilib. Forumun builki mövzusu parçalanan dünyada diplomatiyanın rolu ilə bağlıdır. Vasitəçilikdən regional və qlobal əməkdaşlığa, problemlərin həll yolları ilə bağlı müzakirə aparacağıq. Bununla da diplomatiyanın yenidən önə çıxarmağı planlaşdırırıq". Fidan onu da qeyd edib ki, Türkiyə bu gün Cənubi Qafqazda əməkdaşlıq yaradan bir aktordur.



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bildirib ki, savaşların, ölümlərin acısını ürəyində daşıyan bütün məzlumları salamlayır, onlara dəstək mesajlarını göndərir. Ərdoğan deyib ki, 3 gün davam edəcək Forumun dünya, xüsusən, məzlumlar üçün faydalı olmasını arzulayır. O, deyib ki, döyüşən tərəflər arasında dialoq körpüsü olmaqla Türkiyənin ətrafında barış və təhlükəsizlik qurşağı yaratmağa çalışırlar: İsraili tənqid edən Türkiyə Prezidenti deyib ki, Qəzzada baş verənlərə qarşı səsimizi ucaltmaq sadəcə, qardaşlıq deyil, insanlıq vəzifəmizdir. Türkiyə Prezidenti İsrailin hücumlarının Suriyada İŞİD terror təşkilatına qarşı mübarizəyə zərbə vurduğunu söyləyib

"Cənubi Qafqazda daimi sülh üçün çalışırıq". Türkiyə Prezidenti deyib. Həmçinin Türkiyə lideri Suriyaya dəstəyini də ifadə edib. "Mərkəzi Asiyanın qardaş respublikaları xarici siyasətimizdə öz xüsusi yerlərini hər keçən gün möhkəmləndirirlər. Son illər ölkəmizin gərgin səyləri ilə inteqrasiya istiqamətində mühüm addımlar atan Türk Dövlətləri Təşkilatı bu əməkdaşlığın möhkəmlənməsinə çox mühüm töhfələr verir. Son vaxtlar Kipr türk xalqının suveren bərabərliyini və bərabər beynəlxalq statusunu tanıtmaq üçün səylərimizi artırmışıq. Adada ədalət bərqərar olana qədər bunu səbirlə davam etdirəcəyik", - dövlət başçısı bildirib.

Ərdoğan bildirib ki, Türkiyə ABŞ və Rusiya daxil olmaqla Suriya məsələsi ilə bağlı bütün aktorlarla sıx təmas içərisindədir. "Suriyadakı gərginlikdən, münaqişədən ən çox təsirlənən dövlət olmuşuq. Suriyanın yenidən qeyri-sabitliyə yönəlməsinə imkan verməyəcəyik. Suriyanın ərazi bütövlüyünü özümüzün-kündən ayrı görmürük. Suriya xalqı zülm və müharibədən bezib. Onlara belə bir şeyi təkrar yaşatmaq istəyənlər mövqeyimizi nəzərə almalıdır", - o əlavə edib. Ərdoğan bildirib ki, Türkiyənin təmkinli davranışları başqalarına fürsət kimi görünməməlidir: "Türkiyə bütün bölgə xalqları üçün sülh, rifah, təhlükəsizlik, sabitlik istəyir. Bölgədə Türkiyə ABŞ və Rusiya da daxil olmaqla, Suriya məsələsi ilə bağlı bütün aktorlarla sıx təmas içərisindədir".

Onu da deyək ki, Türkiyə xarici işlər naziri Hakan Fidan Antalyada ermənistanlı həmkarı Ararat Mirzoyanla görüş keçirəcək. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan bu məlumatı təsdiqləyib. Danışıqlar Antalyada keçirilən IV Diplomatiya Forumu (ADF2025) çərçivəsində aparılacaq.

❑ **Hazırladı: Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Bakıdakı "Nürnberq prosesi" bu tarixdə bitəcək

## Hərbi canilərin məhkəməsi bu il yekunlaşa bilərmi - hüquq müdafiəçisindən proqnoz...

**Aprelin 11-də hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib. Proses Bakı Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə baş tutub.**

Qeyd edək ki, onlar Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma Dağlıq Qarabağ respublikası və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərdə təqsirləndirilirlər. Demək olar, hər həftə məhkəmə istintaqı davam etdirilir.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə "Yeni Müsavat"a şərhində bildirdi ki, məhkəmə proseslərində erməniəsilli şəxslərin törətdiyi cinayətlər nəticəsində zərərçəkmiş şəxs kimi tanınan Azərbaycan vətəndaşları da iştirak edirlər. Hüquqşünas prosesin hazırda daha çox təqsirləndirilən şəxslərin dindirilməsi mərhələsində olduğuna diqqət çəkdi: "Onlar sərbəst ifadələr verirlər, eyni zamanda törətdikləri cinayətləri etiraf edirlər. Ən əsası da budur ki, təqsirləndirilənlərin hər biri ifadələrində dolayı yaxud da birbaşa bildirirlər ki, bütün tapşırıqlar Ermənistandan gəlib, silahları Ermənistan tədarük edib, onlar qanunsuz fəaliyyətlə məşğul olublar. Azərbaycanın bir hissəsini işğal etməklə müstəqil respublika yaradıb, Ermənistana birləşdirmək niyyətləri olub. Bu proses hələ davam edir və nə qədər davam edəcəyini dəqiq demək mümkün deyil. Hər yeni hala görə yeni ifadələr alınır, ittiham tərəfinin, zərərçəkənlərin, hakimlərin, şahidləri sualları çox olduğu üçün prosesin nə qədər davam edəcəyini proqnozlaşdırmaq çətindir. O cümlədən prosesin bu il bitib-bitməyəcəyini demək də qeyri-mümkündür. Adi məhkəmə prosesi aylarla davam edə bilər. Nəzərə almaq lazımdır ki, bu prosesdə təqsirləndirilən və zərərçəkənlərin sayı çoxdur. Təxmin edirəm ki, prosesin təxminən ortasındayıq, bəlkə də heç ortasında deyilik çünki sonda ittiham tərəfinin, zərərçəkənlərin çıxışları olacaq, onlara hazırlıq üçün zaman veriləcək. Hesab edirəm ki, məhkəmə prosesi ilin sonuna qədər bitə də bilər, bitməyə də. Bizim üçün zaman önəmli deyil. Əsas məsələ cinayətləri törədənlərin layiqli cəzalarını almasıdır. Azərbaycan dövləti və xalqı uzun illərdir ədalətin bərpa olunmasını gözləyir. Bu inam bizim hər birimizdə var".



Xatırladaq ki, Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**

# İğtişaşlara çağıran Rəfail Piriyev istintaqa dəvət edildi



**Baş Prokurorluq blogger Rəfail Piriyevi istintaqa dəvət edib. Musavat.com xəbər verir ki, bu barədə "İctimai TV"də məlumat verilib. Məlumatda bildirilib ki, təqsirləndirilən şəxs Rəfail Fizuli oğlu Piriyevə rəsmi bildiriş göndərilib. O, şəxsiyyətini təsdiq edən sənədlə birlikdə mayın 2-si saat 12:00-da Baş Prokurorluğunun İstintaq idarəsinin inzibati binasına gəlməlidir.**

Qeyd olunub ki, R.Piriyevin 2020-ci il sentyabrın 7-də təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib. Həmin qərara əsasən, onun 2019-cu il aprelin 19-dan avqustun 7-dək olan müddətdə qabaqcadan əlbir olduğu, o cümlədən qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə məhkum olunmuş şəxslərlə birlikdə "yutub" və "feysbuk" sosial media hesablarında yerləşdirdiyi videoçarxlarda Azərbaycanda hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına, ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə və bu cür məzmunlu materialları yaymasına əsaslı şübhələr müəyyən edilib.

İstintaqdan qaçıb Azərbaycan hüdudlarından kənarda gizləndiyindən ona ittiham elan edilməsi mümkün olmadığı üçün 2020-ci il sentyabrın 7-də barəsində axtarış elan edilib və Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

R.Piriyevə xəbərdarlıq edilib ki, çağırışa gəlmədiyi halda barəsində qiyabi icraat açıla, qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi ilə nəticələnə bilər.

# MİDA evləri adı ilə 430 minlik dələduzluq - Təfərrüat

**Özünü Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) şəhərsalma və layihə planlaşdırma şöbəsinin müdir müavini kimi təqdim edərək 26 nəfərə qarşı dələduzluqda ittiham edilən şəxsin cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb. Musavat.com xəbər verir ki, Mirdaməd Əzizovun cinayət işi üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə keçirilib.**

Mirdaməd Əzizov özgə əmlakını ələ keçirmək məqsədilə 2022-ci ilin yanvarından 2024-cü ilin fevralınadək olan müddətdə Mənzil İnşaatı Dövlət Agentliyinin paytaxtın Yeni Yasamal ərazisində inşa etdiyi "Yeni Yasamal" yaşayış kompleksindəki mənzillər üçün güzəştli elektron kabineti yaratmaq, həmçinin, sərfəli şərtlərlə dəyərindən ucuz qiymətə mənzillərin alınmasına köməklik göstərilməsi ilə bağlı ona müraciət edənlərə özünü səlahiyyətli və vəzifəli şəxs kimi təqdim edib.



"Yeni Yasamal" yaşayış kompleksindəki mənzillərin alınmasını həll etmək imkanının olduğunu bildirib, həmin şəxslərdə güzəştli şərtlərlə mənzil almalarına köməklik göstərmək imkanının olmasına dair fikir formalaşdırıb, müxtəlif məbləğlərdə pul tələb edib.

Cinayət işi üzrə 26 nəfər zərərçəkmiş qismində tanınıb. Zərərçəkmişlərdən biri də MİDA-dır.

Miradaməd Əzizova qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, barəsində həbs qətimkan tədbiri seçilib.

26 nəfərdən ümumilikdə 431 min 600 manat pul aldığını etiraf edən Mirdaməd əməlindən peşman olduğunu bildirib.

O, mənzillərin alqı-satqısı sahəsində ekspert kimi çıxış etdiyini, televiziya kanallarında, mətbuatda və sosial şəbəkələrdə bu məsələlərlə bağlı çıxışlarının olduğunu deyib. Mirdaməd eyni zamanda BMT-nin insan hüquqları və azadlıqları üzrə komitəsinin eksperti olduğunu da qeyd edib.

Mirdaməd polkovnik formasında olması ilə bağlı məsələni isə belə izah edib ki, Rusiya xüsusi xidmət orqanlarına aid vəsiqə və forma əldə edərək insanların etibarını qazanıb.

Təqsirləndirilən Mirdaməd saxlanılan zaman onun maşınında Rusiya xüsusi xidmət orqanlarının vəsiqəsi, polkovnik rütbəsi olan hərbi geyim və bir neçə jurnalist vəsiqəsi aşkar edilib.

Məhkəmə istintaqı dövründə Mirdaməd zərərçəkmiş şəxslərin pulunu ödəməyib, onlarla barışıq əldə etməyib.

Hökmə əsasən, Mirdaməd Əzizov 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

**Xəbər verdiyimiz kimi, Britaniya hüquq-mühafizə orqanları zorakı cinayətlərin qarşısını almaq üçün məlumat bazası hazırlayırlar. Bu barədə yazan yerli medianın məlumatına görə, həmin bazanın köməyi ilə onlar "potensial" qurbanları və qatilləri axtaracaqlar. Sistemdə intihara cəhdlər, məişət zorakılığı aktları, ümumiyyətlə, müxtəlif insanların, o cümlədən ağır cinayət törətməmiş şəxslərin meyilləri barədə məlumatlar yer alacaq. Hüquq müdafiəçiləri deyirlər ki, onlar mahiyyətcə "soyuq distopiya" olan məlumat bazası yaradıblar. Ədliyyə Nazirliyi layihənin inkişafını inkar etməsə də, onun təfərrüatlarını açıqlamamağa üstünlük verir.**



# Süni intellekt qətl və qurbanları qabaqcadan müəyyən edəcək - Yenilik

## Azərbaycanda da belə bir sistem yaradıla bilər - hüquqşünas rəyi

Britaniyanın söz azadlığı və insan hüquqlarının pozulması hallarını araşdıran "Statewatch" təşkilatının nümayəndələri mətbuata bildiriblər ki, layihə fəal şəkildə inkişaf etdirilir. Təşkilatın məlumatına görə, yüz minlərlə britaniyalı haqqında məlumatlar polisə ötürülüb. 2023-cü ilə qədər məlumat bazası hazır olub və insanın kriminal keçmişinə əsaslanaraq, onun zorakı cinayət törətməsinin təxmini ehtimalını göstərir. Sistem daim təkmilləşir.

Maraqlıdır ki, potensial cinayət qurbanları haqqında daha ətraflı məlumat toplamaq mümkündür. Məlumat bazası özünə zərər vermə hallarını, psixi xəstəlikləri, əlillik və antropometrik bilgilər haqqında məlumatları qeyd edir. Çox güman ki, eyni məlumat potensial cinayətkarlar haqqında da toplanır. Bu sistem əvvəlcə "Qətllərin proqnozlaşdırılması layihəsi" adlanıb. Daha sonra ad daha neytral "Risklərin qiymətləndirilməsini təkmilləşdirmək üçün məlumat paylaşımı" ilə dəyişdirilib. Ola bilsin ki, informasiyanın təhlilində süni intellekt iştirak edir.

Rəsmilər layihənin mövcud olduğunu inkar etmirlər, lakin onlar təkid edirlər ki, bazaya yalnız hər hansı cəzaya görə ən azı bir dəfə məhkəmə hökmü olan şəxslər daxil edilib. Rəsmilər yaxın vaxtlarda görülən işlərlə bağlı hesabat dərc edəcəyinə söz veriblər. Səlahiyyətlilər məlumat bazasının vəziyyəti daha yaxşı təhlil etməyə imkan verəcəyinə əmindirlər, lakin bu təhlilin hansı qabaqlayıcı tədbirlərə səbəb olacağı bəlli deyil.

Azərbaycanda da belə bir məlumat bazası, süni intellektə əsaslanan sistem yaradıla bilərmi? Effektli olarmı?

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, son illər süni intellekt (Sİ) yalnız texnologiyanın deyil, həm də hüquq və etik müzakirələrin mərkəzində dayanır: "Britaniyada hüquq-mühafizə orqanlarının "potensial qətlləri və qurbanları" öncədən müəyyənləşdirmək üçün məlumat bazası hazırlaması bu tendensiyanın bariz nümunəsidir. Bu sistem, süni intellekt alqoritmləri vasitəsilə insanların keçmiş davranışlarına və sosial vəziyyətlərinə əsaslanaraq onların gələcəkdə zorakı cinayətə qarışma ehtimalını qiymətləndirir. Məlumata görə, layihə "Qətllərin proqnozlaşdırılması" adı ilə başlayıb, lakin daha neytral səslənsin deyə "Risklərin qiymətləndirilməsi üçün məlumat paylaşımı" formasına salınıb".

Natiq Ələsgərov deyib ki, layihə çərçivəsində psixi sağlamlıq pozuntuları, məişət zorakılığı, intihara meyllilik, antropometrik göstəricilər və digər şəxsi məlumatlar toplanır: "Süni intellekt bu məlumatlar əsasında şəxsə aid risk dərəcəsi formalaşdırır. Burada məqsəd cinayət baş verməmiş, qarşısını almaqdır. Bəziləri üçün bu, təhlükənin qabaqlanmasıdır, digərləri üçün isə - şəxsi azadlıqlara təhdid kimi görünə bilər".

Natiq Ələsgərovun sözlərinə görə bu sistemlə bağlı əsas tənqidlərdən biri şəxsin cinayət törətməmişdən əvvəl "cinayətkar" kimi qeydə alınmasıdır: "Bu yanaşmanı destopik hesab edənlər də az deyil. Bu gün Britaniyada "Statewatch" kimi təşkilatlar iddia edirlər ki, yüz minlərlə britaniyalı haqda şəxsi məlumatlar artıq polis orqanlarının əlindədir. Halbuki bu şəxslərin əksəriyyəti heç bir cinayət törətməyib. Hesab edirlər ki, burada "təqsirsizlik prezumpsiyası" prinsipi təhlükəyə düşür. Belə sistemlər istər-istəməz müəyyən sosial qruplara qarşı ayrı-seçkiliyə gətirib çıxara bilər. Azərbaycanda belə bir sistemin qurulmasının mümkünlüyünə gəlincə, ölkəmizdə belə bir məlumat bazasının yaradılması texniki baxımdan mümkündür. Ölkədə rəqəmsallaşma sürətlə gedir, süni intellekt sahəsində də ilkin addımlar atılır. Lakin bu cür sistemin tətbiqi üçün bir neçə ciddi məsələyə aydınlıq gətirilməlidir. Şəxsi məlumatların qorunması haqqında qanunvericilik belə məlumatların yığılması və istifadəsi üçün aydın çərçivə yaratmalıdır. Alqoritmlərin qərar vermə mexanizmləri şəffaf olmalı, insan hüquqları ilə ziddiyyət təşkil etməməlidir. Cəmiyyəti də buna hazırlamaq, belə sistemin tətbiqi barədə ictimai müzakirə açmaq, vətəndaşlar məlumatlandırmaq, maarifləndirmək də vacibdir".

Natiq Ələsgərov deyib ki, sistemə nəzarət edən, sui-istifadə hallarını araşdıran və ictimai hesabat təqdim edən bir qurum da yaradılsa, heç bir problem yaranmaz: "Əgər bu cür sistemlər şəffaf, etik və hüquqi çərçivədə qurularsa, cinayətlərin qarşısının alınmasında faydalı ola bilər. Məsələn, məişət zorakılığı hallarını erkən müəyyənləşdirib müdaxilə etmək, intihara meylli şəxsləri zamanında yardımla təmin etmək mümkün ola bilər. Amma sistemin "proqnozlaşdırıcı" xarakteri onu da göstərir ki, səhv ehtimallar və "etik xətalar" da qaçılmazdır. Süni intellektin hüquq-mühafizə orqanlarında istifadəsi, xüsusilə preventiv məqsədlə tətbiqi gələcəyin deyil, artıq bu günün reallığıdır. Lakin texnologiyanın imkanlarından istifadə edərkən insan hüquqları və azadlıqları unudulmamalıdır. Əks halda, texnologiya bizi qorumaq əvəzinə idarə etməyə başlayacaq".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# "Köçəryan bizim kombinatda dəzgahları yağlayırdı"

## Xankəndidən olan zərərçəkmiş: "Evimizin qapısını döyürdülər, söyürdülər ki, buradan gedin"

**Aprelin 11-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində zərərçəkmiş Nazeykə Atakişiyeva ifadə verib və sualları cavablandırıb. "Yeni Müsavat" xəbər verir ki, 1954-cü ildə Xankəndi şəhərində anadan olmuş və orada yaşamış N. Atakişiyeva ermənilərin Xankəndidə yaşayan azərbaycanlılara münasibətinin yaxşı olmadığını, 1988-ci ilin fevralından isə bu münasibətin çox pis şəkildə dəyişdiyini bildirib.**



N.Atakişiyeva Xankəndidə yerləşən Qarabağ İpək Kombinatında toxucu işlədiyini, Robert Köçəryanın həmin kombinatda dəzgahların yağlanması işinə baxdığını, sonradan komsomol katibi keçdiyini, azərbaycanlılara qarşı fəaliyyətdə əsas adamlardan biri olduğunu bildirib. "1988-ci ilin fevralından başlayaraq iş yerindən çıxanda bizi saqqallılar gözləyirdi. Onlar Xankəndidən deyildilər", - deyə o qeyd edib.

O, yaşadığı evin qarşısında ermənilər tərəfindən daşlandığını, təhqir olunduğunu deyib və əlavə edib: "Evimizin qapısını döyürdülər, söyürdülər ki, buradan gedin, burada biz yaşayacağıq". Zərərçəkmiş şəxs 1988-ci ilin fevralında evinin talan edilərək dağıdıldığını, həmin vaxt Ağdama getdiklərini deyib.

Qeyd edək ki, Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robert təqsirləndirilən şəxs qismində cəlb olunublar.

Baş prokurorluğun mətbuat xidmətinin yaydığı məlumata görə, 2 may 2024-cü ildə Azərbaycan Baş prokurorunun qərarı ilə, 1987-ci ilin oktyabrından 2024-cü il, 22 aprel tarixinədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş prokurorluq və Respublikanın ayrı-ayrı istintaq qurumlarında araşdırılmış 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Baş Prokurorluğunun rəhbərliyi altında, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunublar.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



## Moskvada üçtərəfli görüş olacaq? - açıqlama

**Rusiya prezidenti Vladimir Putin mayın 9-da Moskvada Qızıl Meydanda keçiriləcək illik paraddan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan prezidenti İlham Əliyevlə görüşəcək. Bu iddia ilə Ermənistanın "Joğovurd" qəzeti çıxış edib.**

"Rusiya dairələrindən bizə verilən məlumata görə, razılıq əldə olunacaq ki, may bayramlarından sonra Ermənistan və Azərbaycan Alma-Atada hansısa sülh sənədi imzalayacaqlar. Paşinyan Alma-Ata bəyannaməsini Ermənistan-Azərbaycan danışıqlarının mərkəzinə qoyduğu üçün imzalanma yeri kimi Qazaxıstan, Alma-Ata təsadüfən seçilməyib. "Joğovurd" qəzeti bu məlumatı Ermənistan Respublikasının baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryanla dəqiqləşdirməyə çalışıb, lakin o, cavab verməkdən imtina edib", - nəşr yazır.

"Paşinyan, Putin və Əliyev arasında üçtərəfli görüş mayın 9-da planlaşdırılmır". Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan belə deyib.

Xatırladaq ki, ötən il Kazanda Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri görüşüblər. Daha əvvəl onların Britaniya və Rusiyada görüşmək imkanı olsa da, bu baş tutmamış və hər iki tərəf bir-birini görüşdən imtina etməkdə ittiham etmişdi.

## Paşinyanla separatçıların yeni planı açıqlandı

**Ermənistan Baş naziri Nikol Paşinyan ləğv edilmiş separatçı rejimin "keçmiş təhlükəsizlik şurasının katibi" Samvel Babayanla əməkdaşlığını yenidən gücləndirib. Teleqraf xəbər verir ki, bu barədə "Hraparak" qəzeti məlumat yayıb.**

"Qarabağlı ermənilər arasında Paşinyanla Babayan arasında kölgə əməkdaşlığının yenidən gücləndiyi barədə söz-söhbətlər var. İddiaya görə, Babayana tikinti tenderləri sahəsində müəyyən kvota verilib. O, qarabağlı ermənilər və iş adamları ilə aktiv görüşlər keçirir. Babayan bunu daha çox pul yox, özünə qarabağlı ermənilər arasında daha çox tərəfdar cəlb etmək üçün edir.

Babayan qarşıdan gələn parlament seçkilərinə qədər "təsiredici müxalifət elektoratı" formalaşdırmağa çalışır. O, gələn il keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətindədir", - məlumatda deyilir. İddiaya görə, Babayan İrəvanda fəaliyyətini davam etdirən keçmiş qondarma qurumun QHT-yə çevrilməsinin tərəfdarıdır. Erməni mənbələri bunun Paşinyanın planı olduğunu, məqsədin separatçı ünsürlərin fəaliyyətlərinə birdəfəlik son qoymaq olduğunu yazırlar.

Xatırladaq ki, işğal dövründə Qarabağda separatizm və digər cinayət fəaliyyətlərində aktiv iştirak etmiş Samvel Babayan 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun birgünlük antiterror tədbirləri zamanı Ermənistana qaçmışdı.

# İrəvandan şok terror hədəsi - Bakıdan xəbərdarlıq

## Ermənistanda Azərbaycana qarşı qisas çağırışları səslənir; Paşinyan onları susdurmasa, Azərbaycan nə edəcəyini bilir - sərt reaksiyalar



**"Ən genişmiqyaslı, sistematik, məqsədyönlü və ədalətli erməni qisasının alternativi olmamalıdır, çünki bu, yalnız bizim şərəfimiz deyil, həm də nəsillərimizin təhlükəsizliyi məsələsidir". "Yeni Müsavat" bildirir ki, bu sözlər hər hansı bir blogerə deyil, Ermənistanda akademik dairələrin tanınmış nümayəndəsi, şərqşünas Vardan Voskanyana məxsusdur. Bu barədə Caliber.az-ın Yutub kanalında yayımlanan yeni süjetdə bildirilir.**

"Sitat mücərrəd kimi görünsə də, daha sonra Voskanyan açıq təhdidlərə keçir. O, faktiki olaraq Azərbaycan vətəndaşlarına qarşı terror aktlarının törədilməsinə çağırır. Voskanyanın sözlərinə görə, belə hərəkətlər ədalətlidir, çünki Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı beynəlxalq qaydaları pozub. Bir sözlə, uydurma "mənəvi qisas" pərdəsi altında azərbaycanlıların qətli üçün birbaşa çağırış edilir. Vardan Voskanyanın Azərbaycan vətəndaşlarına qarşı zorakılıq aktlarına çağırışlarının ciddiliyini anlamaq üçün onun portretinə daha bir xarakterik cizgi əlavə edək. O, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyanın başçılıq etdiyi "Vətən" partiyasının üzvüdür. Məlum olduğu kimi, kəşfiyyatçıların və əks-kəşfiyyatçıların sabiqi olmur", - deyə süjetdə bildirilir.

Azərbaycana qarşı terror çağırışı ilə çıxış edən təkcə Voskanyan deyil. Zaman-zaman başqa radikal-revanşistlərin dilindən də eyni hədələr səslənir. Bu kimi faktlar rəsmi Bakının Ermənistan konstitusiyası ilə bağlı legitim tələbinin nə dərəcədə əsaslı olduğunu bir daha ortaya qoyur. Nə barədə ki, Prezident İlham Əliyev aprelin 9-da ADA Universitetində keçirilən beynəlxalq forumda çıxışı zamanı növbəti dəfə, qəti şəkildə bəyan edib. Dövlət başçısı təəssüflə onu da qeyd edib ki, ermənilərin, o cümlədən erməni siyasətçilərinin, həmçinin hakimiyyətdəkilərin şüurunda hələ də "böyük Ermənistan" xülyası qalır.

Bəs Azərbaycan nələrə daha çox diqqət etməlidir (neft-qaz infrastrukturları və s.)? Nəzər almaq lazımdır ki, ermənilər terrorçuluqda yetərincə "təcrübə" toplamış mazoxist bir toplumdur. Onlar yeri gələndə hətta özlərinə qarşı da bu üsuldan istifadə edirlər. 1999-cu ilin 27 oktyabrında Ermənistan parlamentinin güllələbaran edilməsini yada salmaq kifayətdir...

"Nə qədər sülh sazişi yoxdur, təhlükə və təhdid həmişə olacaq",- "Yeni Müsavat"a danışan hərbi ekspert Ramil Məmmədli Ermənistandan səslənən hədələri belə şərh etdi. Tarix boyu erməni terroru ilə üzləşdiyimizi vurğulayan hərbi şərhçi vurğuladı ki, hər an ayıq-sayıq olmalı, sərhədlərimizin təhlükəsizliyini təmin etməliyik. R. Məmmədli qeyd etdi ki, İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətin təsirləri hələ də erməni xalqının canından çıxmayıb, ona görə vaxtaşırı belə qisas çağırışları eşidilir: "44 günlük müharibənin nəticələri erməniləri qəflət yuxusundan oyatdı. Onlar azı 30 ildə arxayınlaşmışdı ki, Qarabağda müharibə olmayacaq və torpaqları azərbaycanlılar azad edə bilməyəcək. Ona görə də erməni cəmiyyətində həm məğlubiyyətin gətirdiyi bədbinlik, ümidsizlik var, həm də qisas hissi, intiqam, hikkə hökm sürür".

R.Məmmədli bununla belə Ermənistanın yeni müharibəyə hazır olmadığını əlavə etdi: "Onlar başa düşüblər ki, Azərbaycanla yeni döyüşlər axmaqlıq olardı. Əvvəla Ordumuzun qüdrətinə bələddirlər, ikincisi, erməni xalqı yeni döyüşə hazır deyil, ən nəhayət, geosiyasi şərtlər İrəvanın əleyhinədir. Sadəcə, Voskanyan kimilər qisasçılığı aşılayır, cəmiyyəti inandırmağa çalışır ki, nə vaxtsa yenidən savaşmağa hazır olmalıdırlar. O nöqteyi-nəzərdən terror dili ilə danışırlar. Amma Voskanyan kimi terrorçuların bir qismi Bakıda mühakimə edilir. Əgər onun da belə həvəsi varsa, buyursun, Azərbaycanın güc strukturları onu gözləyir".

Ekspert sonda dedi ki, kimsə terrordan sığortalanmayıb, erməni terroru isə başımıza əsrlər boyu gəlib, lakin Azərbaycan dövlətinin xüsusi xidmət orqanları da, ordusu da ən yüksək səviyyədə fəaliyyət göstərir: "Yada salaq ki, Tovuz döyüşləri zamanı ermənilər Azərbaycanın enerji infrastrukturunu təhdid edən addımlar atmaq istəyirdilər, lakin layiqli cavab aldılar. Ona görə növbəti belə bir cəhd Ermənistan üçün daha böyük fəlakətlə nəticələnə bilər. Əgər Paşinyan onları susdurmasa, Azərbaycan nə edəcəyini çox yaxşı bilir. Qoy onlar nə gözlədiyini bilsinlər".

Siyasi ekspert Züriyə Qarayeva isə xatırlatdı ki, 90-cı illərin əvvəllərində Ermənistanın rəsmi dairələri "Daşnaksütyun", ASALA, MAQ, "Erməni birliyi", "Erməni Azadlıq cəbhəsi" və digər məşhur erməni terror təşkilatları fəallarının reabilitasiyası məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamışdı, onlara sığınacaq verməklə yaşayış və fəaliyyətləri üçün şərait yaratmışdı, müvafiq maliyyə dəstəyi göstərmişdilər: "Ermənilər terrorçuluq əməlləri ilə türk diplomatlarını da hədəfə alıblar, Azərbaycanda da terror aktları törətməyə çalışıblar. Yəni o cəmiyyətdə xəstə təfəkkürlü, qisas hissi ilə alışıb yanan revanşist-terrorist qüvvələr bu gün də var. Prezident təsadüfən demədi ki, bu gün Ermənistanda güclü revanşist qruplar mövcuddur. Bu, dəqiq informasiyaya söykənən fikirdir. Onlar Paşinyan hakimiyyətinin gedişini gözləyirlər və ümid edirlər ki, yenidən münaqişə başlaya bilər. Amma hesab edirəm ki, ermənilər 44 günlük müharibədən dərs götürməlidirlər".

Z.Qarayeva söylədi ki, Azərbaycan öz təhlükəsizliyini ən yüksək səviyyədə təmin edir: "Azərbaycan quru sərhədlərini də bu səbəbdən bağlı saxlayır. Cənab prezident bildirib ki, quru sərhədlərin bağlı qalması təhlükəsizliklə əlaqədardır. Yəni təkcə Ermənistandan söhbət getmir, Rusiya müharibə şəraitindədir, İrana hücum riski qalır, belə şəraitdə Azərbaycan özünü qoruyur. Düşünürəm ki, Paşinyanın rəhbərlik etdiyi hökumət Voskanyanın çağırışlarına reaksiya verməlidir. Ümumiyyətlə, Ermənistan hüquq-mühafizə orqanları onu təhdidlərinə görə məsuliyyətə cəlb etməlidir. Çünki qisasa çağırır, nifrət toxumunu səpir, düşmənçiliyi qızışdırır və sülh prosesinə zərər vurur".

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

**“Biz İran Prezidentinin bu ay Azərbaycana səfər edəcəyini gözləyirik. Bu, ikitərəfli münasibətlərin və regional hadisələrin inkişafı baxımından vacib səfər olacaq”. Bu barədə Prezident İlham Əliyev aprelin 9-da ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda çıxışı zamanı bildirib.**

# Pezeşkianın gecikən səfəri - Əliyevlə hansı dildə danışacaq?

## İranın azərbaycanlı prezidentinin bu ay Bakı səfərindən gözləntilər var; **analitik:** “O, fars dilində danışsa, bəlli olacaq ki...”



Son aylar ərzində iki ölkənin yüksək səviyyəli nümayəndələrinin qarşılıqlı səfərlər etdiklərini deyən dövlət başçısı vurğulayıb: “Seçki prosesi zamanı İranda baş verən proseslər bizi məmnun etdi. Biz İrandan müsbət mesajlar eşitdik. Biz bütün qonşularımızla, o cümlədən İranla yaxşı münasibətlərə malik olmaq istəyirik. İranla geniş nəqliyyat və iqtisadi gündəliyimiz var”.

İlham Əliyev eyni zamanda, ölkələrimiz arasında münasibətlərin tam şəkildə normallaşdırılmasının şərtini də açıqlayıb. Bu da Tehrandakı səfirliyimizə hücum edən terrorçu və onun arxasında duranların ədalət məhkəməsi qarşısında cavab verməsi və cəzalanmalarıdır. “Mən İrandan olan qonaqlara sual verdim - mənim yerimdə olsanız, nə düşünərsiniz? Bu, təəssüfdoğuran hal oldu və bildiyiniz kimi, biz səfirlik heyətimizi tam şəkildə təxliyə etdik. Hadisədən bir ildən artıq vaxt keçmişdi və daha sonra İranın mərhum xarici işlər naziri mənə söz verdi ki, cinayətkar mühakimə ediləcək və ən ağır cəza alacaqdır. O vaxtdan iki ildən artıq vaxt keçməsinə baxmayaraq, bu, baş verməyib.

Törətdiyi terror aktından dərhal sonra terrorçu televiziyaya çıxaraq mediaya müsahibələr verdi. Siz belə halın şahidi olmusunuz? Başqa dövlətin səfirliyində qətl törədən insan dərhal müsahibə verir. Elə həmin gün bu şəxs ruhi xəstə elan edilir. Ancaq tibbi ekspertiza ilə prosedur hər kəsə bəllidir. Bu, vaxt tələb edir, çünki bəzi hallarda cinayətkarlar özlərini ruhi xəstə kimi təqdim edirlər. Yəni, insanın ruhi xəstə olub-olmadığını müəyyən etmək üçün vaxt lazımdır. Bunun üçün tibbi komissiya tələb olunur. Beləliklə, bu şəxs, sadəcə, ruhi xəstə elan edildi"-Prezident fikrini bu cür ifadə edib.

Bəs İran prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasına bu aya nəzərdə tutulan səfərinə kimi həmin şərt təmin edilə bilərmi? Başqa yandan, Bakıda iki azərbaycanlı prezident hansı dildə danışacaq - Azərbaycan dilində, yoxsa... Ən əsası ünsiyyət dilindən asılı olmayaraq, tərəflər arasında anlaşma mümkün olacaqmı? Səfər iki ölkə münasibətlərini yeni və yuxarı səviyyəyə daşıya bilərmi?

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Prezident İlham Əliyev forumdakı çıxışında iranlı həmkarı Məsud Pezeşkianın bu ay Azərbaycana reallaşacaq səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətini, o cümlədən qonşu ölkə ilə geniş nəqliyyat və iqtisadi gündəliyinin olduğunu vurğulasa da, Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktını unutmadığını da sözlərinə əlavə etməsi bu məsələnin Azərbaycan üçün nə dərəcədə həssas məsələ olduğunun göstəricisidir: “Azərbaycan vətəndaşının ölümü ilə nəticələnən faciədən iki il keçməsinə baxmayaraq terroru törədənin hələ də cəzalandırılmadığını bildirən İlham Əliyev ölkələrimiz arasında münasibətlərin tam şəkildə normallaşdırılması üçün bu məsələnin həllinin tapılması vacibliyini xatırladıb. Bu məsələnin həlli Azərbaycana səfər edən Məsud Pezeşkianın diqqətinə çatdırılacaq. Məsələ burasındadır ki, səfirliyimizə terror hücumu zamanı təxminən 40 dəqiqə ərzində terrorçuya müdaxilə edilməməsi cinayətin arxasındakı qüvvələrin gücündən xəbər verir. İlham Əliyev bu mövzuda danışarkən, terroru törədən cinayətkarın hadisədən dəqiqələr sonra rahat şəkildə İran dövlət televiziyasına müsahibə verdiyinə də diqqəti çəkib. Bu faktın özü bizdə terrorun yüksək dairələrdə planlaşdırıldığı və bu səbəbdən cinayətkarın hələ də cəzalandırılmadığı şübhələrini yaradıb. İki ölkə arasında münasibətlərin inkişafını istəyən Məsud Pezeşkianın bu məsələni həll etməyə gücü çatacaqmı? Bunu zaman göstərəcək”.

Elxan Şahinoğlu qeyd etdi ki, Məsud Pezeşkian böyük ehtimalla Bakıdakı görüşlərində Azərbaycan dilində danışacaq, ancaq tərsi də mümkündür: “O, Bakıda fars dilində danışsa, Pezeşkianın İrandakı mühafizəkar dairələrdən çəkindiyi üzə çıxacaq. Bəlli olacaq ki, səfirliyimizə terror aktı həyata keçirən caninin cəzalandırılması məsələsində Pezeşkianın Bakının istədiyini reallaşdıra biləcəyi sual altındadır”.

Ekspert bildirdi ki, Pezeşkianın səfərinin İran-Azərbaycan münasibətlərinə təsir edəcəyi şübhəsizdir: “Azərbaycanın İranla müzakirə edəcəyi kifayət qədər çox mövzular var. Həm siyasi, həm iqtisadi sahələri əhatə edən məsələlər müzakirə olunacaq və yəqin ki, səfər zamanı razılaşmalar, müəyyən sahələri əhatə edən sənədlərin imzalanması da reallaşacaq”.

Qeyd edək ki, İranın Azərbaycan türkü olan yeni Prezidenti Məsud Pezeşkian İranda müxtəlif tədbirlərdə və görüşlərdə ana dilində danışır. Bu da İrandakı fars millətçi dairələri tərəfindən ona qarşı hücumlara, tənqidlərə gətirib çıxarır. Lakin Pezeşkian bu basqılara əhəmiyyət vermədiyini nümayiş etdirir.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**




## Bakıdan fransız nazirin cavabı verildi

### “Beynəlxalq öhdəliklərini yerinə yetirmək əvəzinə, BTQ-nin simasında süni düşmən obrazı formalaşdırılır”

**Bakı Təşəbbüs Qrupu Fransa XİN başçısına cavab verib. Musavat.com xəbər verir ki, fransalı nazirin növbəti ittihamlarına Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov cavab verib. O, səslənən fikirləri əsassız adlandırıb: “Jan Noel Barrot növbəti dəfə Fransa Milli Assambleyasındakı çıxışını Bakı Təşəbbüs Qrupuna həsr edib. İlk növbədə, bəyan edirik ki, nazirin səsləndirdiyi ittihamlar əsassız, qeyri-obyektiv və qərəzlidir. Təşkilatımızın beynəlxalq hüquq çərçivəsində fəaliyyətini hədəfə alan bu cür iddiaları qətiyyətlə rədd edirik”.**

O qeyd edib ki, xoş niyyətlə Fransa hökuməti ilə koloniyalar arasında danışıqlarda vasitəçilik təklif edən Bakı Təşəbbüs Qrupunu sabitliyi pozmaqda, gərginliyi artırmaqda və digər qeyri-qanuni fəaliyyətdə təqsirləndirmək Fransanın əsarət altında saxladığı xalqların tələblərini icra etməkdən boyun qaçırmaq cəhdidir: “Fransa hökuməti beynəlxalq öhdəliklərini yerinə yetirmək əvəzinə, BTQ-nin simasında süni düşmən obrazı formalaşdırır və Fransa ictimaiyyətini aldatmaqda davam edir.

BTQ dekolonizasiya, habelə əsarət altında saxlanılan xalqların öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsi uğrunda mübarizə aparır, adaların sahibi olan yerli xalqların tarixi, mədəni kimliyinə hörmət edilməsini tələb edir. BTQ bu tələbləri irəli sürərkən Fransanın da səs verdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə (1948), BMT Baş Assambleyasının 1514 saylı Qətnaməsinə (Dekolonizasiya haqqında Bəyannamə, 1960) və digər universal sənədlərə istinad edir".

Abbas Abbasov rəhbərlik etdiyi təşkilatın Fransa hökumətini kolonial təfəkkürdən əl çəkməyə, xalqların azad olmaq hüququna hörmət etməyə, törətdiyi çoxsaylı insanlıq əleyhinə və müharibə cinayətlərini etiraf edərək üzr istəməyə və bundan əziyyət çəkən xalqlara layiqli kompensasiya ödəməyə çağırıb.

Qeyd edək ki, Fransanın xarici işlər naziri Jan Noel Barrot parlamentdə çıxışı zamanı iddia edib ki, fransız Polineziyasında hakimiyyətdə olan və ən çox deputatla təmsil olunan Tavini Partiyası Azərbaycan tərəfindən yönləndirilir. Bundan başqa nazir deyib ki, 2023-cü ildən etibarən, Bakı Təşəbbüs Qrupu vasitəsilə bu ərazilərdəki gərginlikləri alovlandıran, böhranları dərinləşdirən fəaliyyət müşahidə olunur. Barrot “misal” kimi Yeni Kaledoniyada zorakılıqları, Qvadelup və Martinikdə qarşıdurmaları, Mayotda Çido qasırğasından doğan narazılıqları xatırladıb. Fransa XİN-in başçısı iddia edib ki, guya Azərbaycan “rəqəmsal təsir”, “kibertəhlükə”, “informasiya manipulyasiyası”, “Frsansanın müstəmləkəçi kimi təqdim olunması” kimi müxtəlif üsullarla bu ərazilərdəki proseslərə müdaxilə edir və bütün bunlardan “müstəqillik tələblərini qızışdırmaq üçün” istifadə olunur.

## İran: “ABŞ-la razılığa gələ bilərlər”

**“Əgər ABŞ-nin tək tələbi İrandan nüvə silahı istehsalından imtina etmək olsa, Omandakı danışıqlarda asanlıqla razılığa gələ bilərlər”. Bu barədə İran xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini Məcid Təxt Rəvançini bildirib.**

“Amerikalılar deyirlər ki, İranda nüvə silahı olmamalıdır. Biz isə daim bildiririk ki, bizi nüvə silahı maraqlandırmır. Beləliklə, əgər amerikalıların tək tələbi İranın nüvə silahından imtina etməsi olarsa, biz yeni bir razılaşma əldə edə bilərik”,- o qeyd edib.

Qeyd edək ki, İran və ABŞ nümayəndə heyətləri arasında ilk məsləhətləşmə raundu aprelin 12-də Omanda keçiriləcək.



# Tarif savaşının altındakı yumurtalar

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə zəhmətkeşlərimizi 12 aprel - Kosmonavtika günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. İnşallah, gələn Novruzu Marsda qarşılayaq. Biz uşaq olanda məktəblilər arasında sorğu keçirsən çoxları "Qaqarin kimi kosmonavt olmaq arzusundayam" yazardı. İndi isə böyük ehtimalla ya polis, ya da manıs olmaq üstün gələr. Hətta bunu yaza bilsələr şükür, çünki aparılan yoxlamaların nəticəsinə görə Azərbaycan məktəblilərinin böyük hissəsi öz fikrini şifahi ifadə etməyə, danışmağa belə çətinlik çəkir, gəl gör yazmaq olsun.**

Nə etməli, hər dövrün öz dəyərləri, qəhrəmanları vardır. O vaxt Müslümə qulaq asırdıq, indi Manafın cibində neçə manat olmasıyla maraqlanırıq.

Hərçənd, pessimist olmaq lazım deyil və Sabirin o məşhur "əcnəbi və balon" temalı şeirinin qüvvədən düşdüyünü söyləmək mümkündür. İki gün qabaq Bakıda taksi havada uçurdu. Buyur. Artıq bütün dünyanın müzakirə elədiyi, lakin hələ də qayıra bilmədiyi uçan taksi nəqliyyat növü paytaxtımızda istifadə verilmişdir. İlon Mask bu qələti edə bilməyib. Hələ taksilər üzrə rəsmi yoxlamalar, lisenziya-zad söhbətləri islahatları müəyyən qədər ləngidibdir. Hökumət azadlıq versəydi indi uçan taksi ilə rayonlara da gedirdik.

Bu arada, zəhmətkeşlərimizi umsuq eləmək istəyirik: mayda açılması gözlənilən Bakı-Tiflis qatarı açılmayacaq. İdarə bunu təxirə salıbdır. Nəyə görə, heç kəs bilmir. Yəqin sınaq uçuşları həyata keçirilməlidir, sərnişinləri aylarla qaranlıq bunkerlərdə yoxlamalıyıq. Yol uzaqdır, bunun radiasiya, meteorit, asteroid təhlükəsi var, aclıq-susuzluq, Günəş partlamaları və sairə... Deyəsən bunlar Marsa uçuşlara aid idi, ancaq nə fərqi, bu saat Marneuli bizim üçün elə Mars kimi yerdir.

Sözgəlişi, hamı uçan taksidən danışır, lakin hadisə yerinin xüsusiyyətlərini unuduruq. Kadrlardan açıq görünür ki, ora Azərsu idarəsinin qabağıdır. Su idarəsini görəndə hamımız sevindiyimizdən qanad açıb uçuruq, burda qeyri-adi heç nə yoxdur. Hələ Tarif Şurası suyun qiyməti üzrə müraciətə baxsın, əsas uçuşlarımız onda olacaqdır.

Nəqliyyat sektorumuz, ümumiyyətlə, uçana-qaçana aman vermir. Ən çox da metro inkişaf etməkdədir. Hər 30 ildə 0,5 stansiya istifadəyə verilir. Üstəlik, biz təzə stansiya gözlədiyimiz anda hökumət götürür köhnələri də bağlayır. İndi təzə bir islahat ortaya atılıbdır, deyir "Həzi Aslanov"dan "Dərnəgül"ə getmək üçün "28 may"da metrodan çıxmaq, gəzə-gəzə "Nizami" stansiyasına gedib orda təzədən yerin altına girmək lazım gələcəkdir. Hansısa tunel qazırmışlar.

Çox gözəl infrastruktur (bilmirəm buna diqqət eləmisinizmi, "infrastruktur" deyəndə insan sanki at kimi fınxırır - bu da nəqliyyatla bağlıdır, yada salın at gücü hesabını) projesidir. Yaxşı olar tunellər qazılandan sonra da açılmasın. Onsuz bəzi metrolarımızda keçidlər o qədər uzundur ki, qatara çatanacan Yerin bütün geoloji inkişaf dövrünü xatırlayırsan.

Sonda bir geopolitik analizimi oxuyun. ABŞ prezidenti bütün dünyaya tarif müharibəsi elan etdi, ara qarışdı, məzhəb itdi. Sonra dövlətlərin çoxuna 3 aylıq fasilə verdi, yeganə Çinlə davası kəsmir. Təsadüfə bax ki, mən elə bugünlərdə Mikayıl Müşfiqi oxuyurdum, onun 1927-ci ildə yazdığı bu misralara rast gəldim:

*"Əsrlərlə şərqlilərə kəsildin acı,*
*Sən ey vəhşi, sən ey azğın imperializm!*
*Gəl Çindəki üsyanlara baxma qıyqacı,*
*Düşün, bu gün onlarda var böyük bir əzm...*
*İndi coşqun bir dənizdir hər işçi Çində,*
*Çəkil geri, qorxutamaz kimsəyi qüvvən,...*
*Yarın sönər zalımların tökdüyü yaşla.*
*Salam sənə, Çin işçisi, üsyana başla!"*

***P.S.** Məncə, dünya tarif böhranına bizim ABŞ-a yumurta ixrac etməyimizin də böyük təsiri oldu. Hər toyuq bizim yumurtanın üstündə yata bilməz.*





# Trampın Əliyevə məktubundakı açar cümlə...

## Ağ Ev rəhbərinin ikinci prezidentliyi dövründə Bakıya ilk məktubu və İsraillə bağlı xüsusi vurğusu nəhəng prosesin başlanğıcından xəbər verir

**Xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir:**

"Hörmətli cənab Prezident. Birləşmiş Ştatlar adından Sizi və Azərbaycan xalqını gözəl Novruz bayramı münasibətilə təbrik edirəm. Novruz hamı üçün sülh, çiçəklənmə və yenilənmə bayramıdır. Ölkələrimiz birgə işləmək sahəsində zəngin tarixə malikdir və mən qarşıdan gələn illərdə əldə edə biləcəyimiz möhtəşəm məqamları səbirsizliklə gözləyirəm. Azərbaycanın tərəfdaşımız İsrailə dəstəyini və onunla dostluğunu dəyərləndirir, ölkənizin və Ermənistanın regiona sülh gətirmək üçün atdığı addımları alqışlayıram. Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Qeyd edək ki, bu, ikinci prezidentlik postunda D.Trampın Azərbaycan liderinə ilk rəsmi məktubudur.

Maraqlıdır ki, bu ərəfədə İsrail Baş nazirinin Ofisinin yaydığı məlumatda Bakıda Türkiyə-İsrail danışıqlarına ev sahibliyi etdiyi üçün Azərbaycana təşəkkür edilib: "İsrail mühüm danışıqlara ev sahibliyi etdiyinə görə Azərbaycana və Prezident İlham Əliyevə təşəkkür edir".

Bildirilib ki, görüşdə hər bir tərəf regionda öz maraqlarını təqdim edib, regional sabitliyi qorumaq üçün dialoq yolunda davam etmək razılaşdırılıb: "Danışıqlarda tərəflər regionda öz maraqlarını təqdim etdi və onlar sabitliyi qorumaq üçün kommunikasiya kanalını açıq saxlamağa razılaşdılar".

Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda yer alana fikirlər ABŞ liderinin Azərbaycana xüsusi önəm verdiyinin, o cümlədən Azərbaycan-İsrail dostluq münasibətlərini yüksək qiymətləndirməsinin təsdiqi kimi şərh edilir.

Milli Məclis sədrinin müavini Musa Qasımlı sosial şəbəkədə hesabında bildirib ki, son illərdə ABŞ-dən belə səmimi və açıq məktub alınmamışdı. Onun sözlərinə görə, Trampın Novruz bayramı münasibətilə prezident Əliyevə göndərdiyi təbrik məktubu mahiyyətinə görə bayram təbriki çərçivəsini aşır: "Bu məktub Tramp administrasiyasının Azərbaycan siyasətinin ana xəttini ifadə edir. Birləşmiş Ştatların rəhbəri ölkələrimizin birgə işləmək sahəsində zəngin tarixə malik olduğunu vurğulayır. Bu, qarşılıqlı münasibətlərin inkişafında vacib amildir. Donald Trampın qarşıdan gələn illərdə hər iki liderin əldə edə biləcəyi möhtəşəm məqamları səbirsizliklə gözlədiyini yazması Azərbaycanla əməkdaşlığın dərinləşdiriləcəyindən xəbər verir. Məktubda Azərbaycan dövlətinin ABŞ-nin tərəfdaşı olan İsrail Dövlətinə Azərbaycanın dəstəyinin və onunla dostluğunun yüksək dəyərləndirilməsi dövlətimizin dünya siyasətində artan roluna verilən qiymətdir. İsrail və Azərbaycanı, Azərbaycan və yəhudi xalqlarını sarsılmaz, sıx tellər bağlayır. Azərbaycanda heç bir vaxt antisemitizm olmayıb. İsrail bizim dostumuzdur".

M.Qasımlının sözlərinə görə, Trampın Azərbaycan və Ermənistanın sülh üçün atdıqları addımları dəstəkləməsi Bayden, Makron və başqalarının Cənubi Qafqazda yürütdükləri "qaynar qazan" siyasətinin üstündən xətt çəkməsidir: "Trampın cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlara doğru irəlilədiyini yazması ölkəmizdə yürüdülən siyasəti qəbul etdiyini, dövlət başçımızla birgə işləmək istədiyini vurğulaması isə bilavasitə cənab Prezidentimizin beynəlxalq nüfuzu ilə bağlıdır. Trampın Birləşmiş Ştatların ölkəmizin suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qaldığını yazması təkcə regionu qarışdırmaq istəyənlərə cavab deyil, eyni zamanda yaxın illərdə dövlətlərimiz arasında mühüm sənədlərin imzala biləcəyinin müjdəsidir".

"ABŞ Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır. Bu fikirlər Birləşmiş Ştatların Prezidenti Donald Trampın Prezident İlham Əliyevə təbrik məktubunda qeyd olunur". Deputat Vüqar Bayramov belə qeyd edib. "Azərbaycana ixracatını 2024-cü ildə 1.8 dəfə, idxalını isə 8.4 dəfə artıran Birləşmiş Ştatlarla ölkəmiz arasındakı əməkdaşlığın yeni dönəmdə dərinləşəcəyi gözlənilir. Bu regionda dayanıqlı sülhün formalaşması və gücləndirməsinə töhfə verən faydalı əməkdaşlıqdır", - deyə o bildirib.

Politoloq Oqtay Qasımov isə "Yeni Müsavat"a bildirdi ki, Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubu çox əhəmiyyətli bir sənəddir: "İkinci prezidentliyinə başladıqdan sonra Donald Tramp ilk dəfə Azərbaycan prezidentinə bu məktubu göndərərək orada çox vacib məqamlara diqqət çəkib. Həm ikitərəfli münasibətlər nöqteyi-nəzərdən, eyni zamanda, Güney Qafqazdakı proseslər, Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması ilə bağlı çağırışlarla yanaşı, məktubda Azərbaycan-İsrail dostluq əlaqələrinə xüsusi diqqət yönəldilməsi çox önəmlidir. Nəzərə alsaq ki, təxminən bir aya öncə Trampın xüsusi nümayəndəsi Azərbaycanda səfərdə olub və burada bir sıra görüşlər keçirib, bununla bərabər həm İsrail parlamentində Azərbaycan-İsrail-ABŞ üçlü müttəfiqlik münasibətləri ilə bağlı səsləndirilən fikirlər, həmçinin Amerikada yaşayan 50-dən artıq İsrailli ravvinin Donald Trampa məktub yazması və məktubda Azərbaycan-ABŞ-İsrail müttəfiqliyi çağırışının edilməsi, Azərbaycanın "İbrahim sazişi"nə qoşulması məsələsinin gündəmə gətirilməsi bir prosesin başlandığından xəbər verir".

Ekspert qeyd etdi ki, Trampın məktubunda da həmin prosesdən qaynaqlanan fikirlər yer alıb: "Təbii ki, Azərbaycan Prezidenti Tramp administrasiyası ilə bağlı müsbət fikirlər söyləyib. Hələ keçən ilin iyununda Şuşada keçirilən beynəlxalq media forumunda-dünya ölkələrinin əksəriyyəti Bayden-Harris cütlüyünü dəstəklədiyi bir vaxtda-Azərbaycan prezidenti açıq şəkildə Donald Trampa dəstəyini ifadə etmişdi. Bu da şübhəsiz ki, Tramp komandası tərəfindən diqqətdən yayınmayıb. O baxımdan, hesab edirəm ki, Azərbaycanın Amerika ilə əlaqələri inkişaf etdirmək marağı var. Bunu Prezident bir neçə dəfə qeyd edib. Bu məktub gələcək əməkdaşlığın inkişafı üçün önəmli bir sənəd kimi dəyərləndirilməlidir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Türk liderlər Ermənistanla sərhədə gəlir - Veriləcək mesaj

## Laçında keçiriləcək zirvə İrəvana və havadarlarına siyasi-diplomatik cavabdır - mövqe

**2025-ci ildə Türk Dövlətləri Təşkilatının (TDT) iki sammitinin keçirilməsi nəzərdə tutulub. Bunlardan biri rəsmi sammitdir və Azərbaycanda baş tutacaq. Qeyri-rəsmi sammit isə Macarıstanda keçiriləcək. Azərbaycanda sammitin Laçında keçiriləcəyi barədə xəbərlər yayılıb. "Gələn ay Laçında TDT Sammiti keçiriləcək və burada Türkiyə və Azərbaycanın türk dünyasının birliyi və əməkdaşlığı məsələlərində güclü həmrəylik nümayiş etdirdiyini bir daha görəcəyik", - Türkiyə Prezidentinin baş müşaviri Çağrı Ərhan yerli mətbuata müsahibəsində deyib.**

Onu da qeyd edək ki, Laçın Beynəlxalq Hava Limanının bu il istismara verilməsi gözlənilir. Laçını təmsil edən deputat Rövşən Muradov da bu ehtimalı istisna etməyib. (Modern.az).

Laçın Ermənistanla həmsərhəd rayondur. Türk dünyasının Şuşadan sonra Laçına toplanmasının siyasi mesajları nədən ibarətdir?

Siyasi şərhçilər qeyd edirlər ki, Laçında sammitin keçirilməsi, Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin və Qarabağda dövlət suverenliyinin tam bərpa olunmasının türk dünyası tərəfindən tanındığının rəmzi ifadəsidir. Bu həm də Ermənistan və ona havadarlıq edən qüvvələrə siyasi və diplomatik cavabdır.

Bundan başqa, Laçın Zəngəzura gedən yolun qapısıdır. Bu bölgədə keçiriləcək sammit vasitəsilə Zəngəzur dəhlizinin açılması məsələsi yenidən gündəmə gətirilə bilər. Sammitdə veriləcək bəyanatlar və qəbul olunacaq qərarlar, bu dəhlizin türk dünyasını birləşdirən strateji layihə kimi təqdim olunmasına xidmət edəcək. Sammitin Laçında keçirilməsi həm də bölgədəki infrastruktur layihələrinin - xüsusən Laçın Beynəlxalq Hava Limanının əhəmiyyətini göstərir. Hava limanının istifadəyə verilməsi, həm turizm, həm ticarət, həm də hərbi-strateji baxımdan bölgənin əhəmiyyətini artıracaq və TDT çərçivəsində regional inteqrasiyanı sürətləndirəcək.

Mövzu ilə bağlı siyasi şərhçi Azər Həsrət "Yeni Müsavat"a deyib ki, ümumiyyətlə, Azərbaycanın uğurları, xüsusilə də Qarabağ məsələsini öz gücü ilə həll etməsi, Türk dünyasında yeni bir canlanma yaradıb: "Orta Asiyadakı - Türküstandakı dostlarım açıq şəkildə mənə bildiriblər ki, Azərbaycan öz qələbəsini təmin etdikdən sonra bizim də özümüzə güvənimiz artdı. Yeni Azərbaycan çox gözəl bir örnək sərgilədi və bütövlükdə Türk dünyası üçün nümunəvi bir hal təşkil etməkdədir. Bu baxımdan, Azərbaycanın bu cür yüksək səviyyəli tədbirləri məhz azad edilmiş torpaqlarda keçirməsi əlbəttə ki, təqdirəlayiqdir. Eyni zamanda, qardaş ölkələrin hətta prezidentləri belə gəlib oradakı dinc quruculuq işlərini görmək istəyirlər. Çünki onlar da öz gözləri ilə görüb əmin olmaq istəyirlər ki, Azərbaycan dövləti həqiqətən də dinc quruculuqla məşğuldur".



A.Həsrət bildirib ki, ona görə də istər Şuşada, Xankəndidə, istərsə də Füzulidə, eləcə də azad edilmiş digər ərazilərdə bu cür tədbirlərin keçirilməsini dəyərləndirməliyik: "Laçında Zirvənin keçirilməsinə gəlincə - bəli, Laçında mən özüm də olmuşam. Həqiqətən də işğaldan azad edildikdən qısa bir müddət sonra orada elə gözəl şəkildə bərpa işləri aparılıb ki, Laçının sadəcə olaraq gözəlliklərinə tamaşa etmək yetərlidir. Hesab edirəm ki, Azərbaycanın Türk dövlətlərinin rəhbərlərinə bu gözəllikləri göstərməsi, bu tədbiri məhz orada keçirməsi də bununla bağlıdır. Yəni biz necə qurucu bir millət olduğumuzu, bunu öz gücümüzlə bacardığımızı nümayiş etdiririk. Eyni zamanda, Laçın hava limanının tikintisi də başa çatmaq üzrədir. Artıq yoxlama uçuşları da edilib, bununla bağlı görüntülər bir neçə gün öncə yayılmışdı. Mümkündür ki, əgər yetişdirsələr, həmin hava limanının açılışını da elə türk dövlətlərinin rəhbərləri ilə birlikdə etsinlər.

Ümumiyyətlə, Azərbaycan bütün uğurlarına türk dövlətlərini ortaq etməyə həvəslidir. Çünki biz özümüzü tək, təcrid olunmuş bir dövlət kimi deyil, türk dövlətlərindən biri kimi görürük və dünyaya da bu şəkildə təqdim edirik. Ona görə də türk dövlətlərinin rəhbərlərini daim yanımızda görmək istəyirik və əlbəttə, azad edilmiş torpaqlarda - həm Qarabağda, həm də Şərqi Zəngəzurda..."

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# İrəvandan mina xəritələri ilə bağlı qəribə təklif - Reaksiya

## Ermənilər Qarabağda yaşayanda onlardan tək-tük adam minaya düşüb, azərbaycanlılar isə... - iki fərqli baxış



**"Ermənistan beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycana ötürülən mina xəritələrinin düzgünlüyünü yoxlamağa hazırdır". "Yeni Müsavat" bildirir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan özünün X səhifəsində İrəvanın Azərbaycana dürüst xəritələr verməməsi ilə bağlı rəsmi Bakının haqlı iradlarını şərh edərkən yazıb.**

"Humanitar məsələlərin həllinə önəm verən Ermənistan birtərəfli qaydada Azərbaycana 2021-ci ilin 12 iyun, 3 iyul, 19 oktyabr, 1 noyabr və 29 noyabr tarixlərində heç bir şərt qoyulmadan 972 mina sahəsinin xəritəsini təqdim edib. Bundan əlavə, Ermənistan humanitar məsələlərdə əməkdaşlıq prinsiplərinə sadiq qalaraq, Azərbaycanın mina sahələrinə dair yeni məlumatlar toplayaraq ona təhvil verib", - Badalyan iddia edib. Onun sözlərinə görə, Azərbaycan tərəfi ona təqdim olunan xəritələrin düzgünlüyünü daim şübhə altına alırsa, Ermənistan beynəlxalq ekspertləri cəlb etməklə onların həqiqiliyini yoxlamağa hazırdır.

Bakı İrəvanın təklifini qəbul edəcəkmi? Bu nəyi dəyişəcək?

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənli "Yeni Müsavat"a açıqlamasında Badalyanın bu mövqeyini həyasızlıq adlandırdı. "Ermənistan hər zaman olduğu kimi, şər-böhtan danışır. İlk növbədə, üzr istəməli idi ki, niyə Azərbaycan ərazisi dünyanın ən çirkləndirilmiş ərazilərindən biridir? Bəlkə də, birincisidir. Ağdam və Füzulidə özləri də etiraf edirlər ki, 97 min mina basdırılıb. Bu sayda minanı niyə basdırıblar? Mina adətən təmas xəttinə basdırılır. Bütün şəhərə, məzarlıqlara, məktəblərə, elə yerlərə minalar qoyulub ki, azərbaycanlılar geri qayıdanda birinci gedəcəkləri yer oralar olacaq. Məqsədləri bu olub ki, o yerlərdə insanlar daha çox minalara düşsün, mina qurbanları olsunlar, soyqırıma uğrasınlar və nəticədə geri qayıtmaq istəməsinlər", deyə E.Həsənli vurğuladı.

Hərbi ekspert bildirdi ki, Ermənistan buna görə təzminat ödəməlidir: "Erməni hərbçiləri minaya düşmür, yaxud oradakı rus hərbçilərinin birinin minaya düşmə faktı yoxdur. Amma Azərbaycan ərazilərini azad edəndən sonra 392 nəfər mina qurbanı olub, həlak olub, yaxud yaralanıb. Əgər xəritələr düz idisə, 392 nəfər minaya düşməli idi? Deməli, verdikləri mina xəritələri doğru deyilmiş. Vaxtı ilə dedilər ki, guya xəritələr yoxdur. Amma Azərbaycan sübut etdi ki, minaları ancaq peşəkarlar basdıra bilər. Qeyri-peşəkarlar bunu edə bilməzlər. Onun üçün ermənilər məcbur qalıb bu xəritələri verdilər. Amma bunu da əvəzsiz etmədilər. Azərbaycan diversant erməni hərbçiləri qaytardı. Həmçinin ermənilərin cəsədləri toplanıb verildi, 700-ə qədər əsir qaytarıldı. Halbuki, hələ də 4 minə yaxın azərbaycanlının taleyi məlum deyil. İndi-indi azad edilən ərazilərdə kütləvi məzarlıqlar aşkar olunur. Ermənilərin davranışına baxın, bir də Azərbaycanın".

Ekspert dedi k, Azərbaycanın minalanmış ərazilərini Mina Agentliyi, eyni zamanda, Azərbaycan Ordusu, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidməti təmizləyir: "Ermənistan görür ki, ərazilərimizdə hava limanları tikilir, yollar çəkilir, kəndlər bərpa edilir, durub 5 ildən sonra hansısa fikirlər irəli sürürlər".

Hərbi icmalçı Səxavət Məmməd isə dedi ki, mina xəritələri ilə bağlı araşdırma aparıb: "Ermənistan bütün sahələrdə olduğu kimi, mina məsələsində də özünü haqlı çıxarmağa çalışır. İlk mərhələdə mina xəritələrini verməkdən boyun qaçıran rəsmi İrəvan sonra mərhələli şəkildə onları verməyə başladı. O mina xəritələrinin bir çoxu isə demək olar ki, yararsızdır. Araşdırmalarım zamanı mina xəritələrinin bir çoxu verilən koordinatlarla uyğun gəlmirdi. Bundan əlavə, müharibədən sonrakı dövrdə və bir neçə gün öncə də minaya düşən şəxslərin heç biri verilən xəritələr istiqamətində minaya düşməyiblər. Ermənistan istəsə belə, dəqiq mina xəritələri verə bilməz".

S.Məmmədin sözlərinə görə, ermənilərin Qarabağda yaşadığı zamanda orada minaya düşənlərin sayı barmaqla sayılacaq qədər idi: "Sual yaranır, necə oldu ki, onlar o müddətdə minaya düşmürdü, ancaq azərbaycanlılar tez-tez minaya düşürlər? Özü də elə yerlərdə minaya düşürlər ki, orada nə hərbi obyekt olub, nə də müdafiə xətti keçib. Demək ki, erməni tərəfi bilərəkdən elə yerlərə minalar döşəyib. Ermənistan onu da unudur ki, minaların çıxarılması və partladılması prosesi məhz beynəlxalq qurumlarla işlənilərək həyata keçirilir. Azərbaycan təkcə daxildəki şirkətlərlə yox, xaricdən də firmalar cəlb edərək minaların təmizlənməsini həyata keçirməlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

# Milli Məclisdən qanunlara mühüm dəyişikliklər - detallar

## Xanlar Vəliyev Konstitusiya Məhkəməsinin hakimi təyin edildi; yeni hakimlərin adları bəlli oldu




**Aprelin 11-də Milli Məclisin növbəti plenar iclası Sahibə Qafarovanın sədrliyi ilə keçirildi. Spiker əvvəlcə Özbəkistana səfəri, iştirak etdiyi mühüm toplantılar, səfər çərçivəsində keçirilən görüşlər barədə deputatları məlumatlandırdı. Bildirdi ki, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti aprelin 4-dən 7-dək Özbəkistan Respublikasında işgüzar səfərdə olub: “Səfərdə məqsəd Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin dördüncü konfransını təşkil edib, iştirak etmək və həmçinin Parlamentlərarası İttifaqın 150-ci Assambleyasında və Assambleya çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının Koordinasiya iclasında iştirak etmək idi. Xatırladım ki, bu gün Milli Məclisin sədri 5 beynəlxalq parlament təşkilatına sədrlik edir və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Asiya Parlament Assambleyası bunlardan ikisidir”.**

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Prezidentin son mesajlarına diqqət çəkdi: “ADA Beynəlxalq Forumunda almaniyalı tədqiqatçı prezident İlham Əliyevdən soruşdu ki, İsrail və Türkiyə arasında münasibətlərin normallaşması üçün dövlətimizin təşəbbüsləri varmı? Sual, əlbəttə, ölkəmizin regional və beynəlxalq təhlükəsizliyə verdiyi tarixi töhfələrdən qaynaqlanırdı. Təkcə 2017-ci ildə ABŞ-Rusiya, 2020-ci ildə NATO-Rusiya yüksək çinli görüşləri ilə qlobal nizama məhz paytaxtımızda nail olmuşdular. Ölkəmizin barışdırıcı rolu ərazilərimiz işğalda olanda da qəbul edilib. Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Qafqaz arasında iqtisadi-siyasi və təhlükəsizlik bağları Bakıdan keçir: ”Suriyada orduları üz-üzə gələn İsrail-Türkiyənin məxfi xidmət orqanları rəhbərlərinin iki gün əvvəl paytaxtımızda görüşü qlobal təhlükəsizlik üçün misilsiz hadisədir. Ölkəmiz Qəzzada savaşı deyil, beynəlxalq hüququ üstün tutduğu üçün hücumlara məruz qalır. Yəhudi və türk dünyasını toqquşdurmaq üçün erməni, Fransa, Kanada, Hindistan və onlarla dövlət çalışır. İsraillə gərginlik Azərbaycan-Türkiyə münasibətlərinə zərbə vurmaq istəyən qüvvələrə fürsət verir. Dünyada antisemitizm dalğasının yüksəlişi fonunda yəhudi icmasına örnək münasibət asan deyil. Qarabağın xilaskarı İlham Əliyev 2-ci dünya müharibəsindən sonra tam və qəti qələbənin ilə başa çatan tək savaşın qalibi kimi yeni münaqişələrin qarşısını alır. Azərbaycan islam dünyasının ən böyük yəhudi və xristian icmalarının təhlükəsiz evidir. Torpaqlarımız fərqli millətlərin və dinlərin çiyin-çiyinə şəhidliyi ilə azad olunub".

Komitə sədri Fazil Mustafa əvvəlcə spiker Sahibə Qafarovanı Özbəkistana uğurlu səfəri ilə bağlı təbrik etdi. Daha sonra bildirdi ki, hökumətin hesabatı zamanı qəzalı binalarla bağlı məsələni gündəmə gətirmişdi. Bu çıxışdan dərhal sonra Baş nazir Əli Əsədov tərəfindən ona cavab verildiyini deyən F.Mustafa operativ reaksiyaya görə təşəkkürünü bildirdi. Deputat qeyd etdi ki, qəzalı binalarla əlaqədar 16 minə yaxın mənzilin yenidən tikilməli olduğu reallığı ortaya çıxıb. F.Mustafa bir müddət əvvəl vətəndaşın mənzilinin tikinti şirkəti tərəfindən qanunsuz olaraq sökülməsi faktını xatırlatdı. Əlavə etdi ki, burada təkcə vətəndaşların şəxsi əmlakı deyil, həm də sahibkarların mənafeləri müzakirə mövzusu olmalıdır. Deputat qeyd etdi ki, planlaşdırılan 16 min mənzilin tikintisi zamanı da sahibkarların üzləşdiyi problemlərə diqqət çəkmək lazımdır. “Çoxsaylı insanlar çətinliklə icazə alıblar, amma işə başlaya bilmirlər”, deyən F.Mustafa əlavə etdi ki, bir məkanda 70 sakinlə razılaşırlarsa, qalan iki sakinlə razılaşa bilmirlər. Millət vəkilinin sözlərinə görə, optimal qiymətləndirmə məsələsində problemlərin olması işləri yubadır. Ona görə də optimal qiymət müəyyənləşməlidir. Yəni minimum nə qədər vəsait təklif olunmalıdır ki, tikinti işlərinə dərhal başlamaq mümkün olsun.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı ilk olaraq keçmiş hərbi prokuror Xanlar Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında qanun layihəsinə baxıldı. Spiker Sahibə Qafarova məsələ ilə bağlı təqdimatın Milli Məclisə göndərildiyini bildirdi. Təqdimatdan sonra layihə səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi. Spikerin təbrikindən sonra Xanlar Vəliyev Milli Məclisdə and içdi.

Gündəlikdəki digər məsələlərin müzakirəsi Bakı, Sumqayıt, Şəki, Şirvan Apellyasiya məhkəmələrinə yeni hakimlərin təyinatı ilə bağlı idi. Layihəyə əsasən, Zəfər Əhmədov Bakı Apellyasiya Məhkəməsinə hakim təyin edilib. Şirvan Apellyasiya Məhkəməsinin hakimi Orxan İsmayılov həmin məhkəmənin hakimi vəzifəsindən azad edilərək Bakı Apellyasiya Məhkəməsinə göndərilib. Füzuli rayon Məhkəməsinin hakimi (sədr) Aqil Əlisa oğlu Musayev vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi təyin edilib.

Layihəyə əsasən, aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilib:

- Allahverdiyev Elbəy Hidayət oğlu;
- Əyyubov Fərid İlham oğlu;
- Sarıyev Xəyal Əjdər oğlu.

Eyni zamanda layihəyə əsasən, vəzifələri dəyişdirilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Kamran Muxtarov və Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi Elçin Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinə hakim təyin edilib.

Həmçinin vəzifələri dəyişdirilərək Şəki İnzibati Məhkəməsinin hakimi Vüqar Musayev, Şəmkir rayon Məhkəməsinin hakimi Taleh Musayev Şəki Apellyasiya Məhkəməsinə hakim göndərilib.

Layihəyə uyğun olaraq, vəzifələri dəyişdirilən Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi Əli Əliyev, Ağdaş rayon Məhkəməsinin hakimi Cavid Sultanov, Masallı rayon Məhkəməsinin hakimi Ceyhun Quliyev, Saatlı rayon Məhkəməsinin hakimi Mirlətif Sadıqov Şirvan Apellyasiya Məhkəməsinə hakim təyin edilib.

Elşad İbiş oğlu Əliyev vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar olaraq Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilib.

Məsələlər səsverməyə qoyularaq qəbul edildib.

İclasda “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə" və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlara dəyişikliklər müzakirəyə çıxarıldı. Layihəyə əsasən, ordu generalı ilə yanaşı müvafiq icra hakimiyyəti orqanının və Azərbaycanın Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumlar istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin edilən rəhbəri və müavini üçün yaş həddi müəyyən edilməyəcək.

Dəyişikliklərdə o da bildirilib ki, həqiqi hərbi xidmətdə və ya ehtiyatda olmağın son yaş həddini keçmiş həmin şəxslər vəzifədən azad edildikdə yaşa görə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılırlar. Qanun layihəsi həqiqi hərbi xidmətdə olmağın son yaş həddi müəyyən edilməyən şəxslərin dairəsinin genişləndirilməsini nəzərdə tutur. Təklif olunan dəyişikliyə görə, ordu generalı ilə yanaşı, Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin edilən müvafiq dövlət orqanlarının rəhbəri və müavini üçün də son yaş həddi müəyyən edilməyəcək.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq ilk oxunuşda qəbul edildi.

Plenar iclasda müzakirə olunan İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsində də mühüm məsələlər əksini tapmışdı. Belə ki, uçuş təhlükəsizliyi qaydalarının pozulmasına görə cərimələr genişləndirilir. Qanun layihəsinə əsasən, müvafiq icazə olmadan pirotexnik məmulat yandırılmasına, yaxud hava gəmilərinin uçuşları üçün təhlükəli quşların kütləvi toplanmasına kömək edən obyektlər qurulmasına görə fiziki şəxslər 3000 manat məbləğində, vəzifəli şəxslər 5000 manat məbləğində, hüquqi şəxslər 10 min manat məbləğində cərimə ediləcək. Lazımi icazə olmadan uçuş təhlükəsizliyi üçün qorxu yarada bilən hər cür atəşə, raketin buraxılmasına, partlayış işlərinə və digər belə işlərin görülməsinə görə fiziki şəxslər 3000 manat məbləğində, vəzifəli şəxslər 5000 manat məbləğində, hüquqi şəxslər 10 min manat məbləğində cərimə ediləcək. Mövcud qanunvericiliyə əsasən, 100 manat məbləğində cərimə tətbiq edilir. “Aviasiya haqqında” Qanunda nəzərdə tutulmuş razılıq olmadan aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılmasına və ya götürülməsinə görə 600 manat məbləğində cərimə ediləcək. Mövcud qanunvericiliyə əsasən, aviasiya qəzasını araşdıran komissiyanın icazəsi olmadan aviasiya qəzasının baş verdiyi yerdə qəzaya uğramış hava gəmisinin hər hansı hissəsinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) götürülməsinə görə 500 manat məbləğində cərimə edilir. Hava limanının (aeroportun) ərazisində yerləşən müəssisə, idarə və təşkilatlar və onların işçiləri tərəfindən obyektdaxili rejimin təmin olunmamasına və buraxılış rejiminə riayət edilməməsinə görə fiziki şəxslər 500 manat məbləğində, vəzifəli şəxslər 2000 manat məbləğində, hüquqi şəxslər 5000 manat məbləğində cərimə ediləcək. Mövcud qanunvericiliyə əsasən, vəzifəli şəxslər 500 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimə edilir.

Hava gəmilərinin yoxlanılması və onlara baxış keçirilməsi qaydasının pozulmasına görə fiziki şəxslər 500 manat məbləğində, vəzifəli şəxslər 1000 manat məbləğində, hüquqi şəxslər 3000 manat məbləğində cərimə ediləcək. Mövcud qanunvericiliyə əsasən, vəzifəli şəxslər 1000 manat məbləğində cərimə edilir. Hava gəmilərinin tərəfindən hava istismarçıları gəmisinin sərnişin və heyət üzvlərinə dair ilkin məlumatların və sərnişin adlarının qeydiyyat məlumatlarının sərnişin məlumatlarına dair “bir pəncərə” sistemi vasitəsilə real vaxt rejimində elektron formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülməməsinə görə fiziki şəxslər 2000 manat məbləğində, vəzifəli şəxslər 5000 manat məbləğində, hüquqi şəxslər 20 min manat məbləğində cərimə ediləcək.

Azərbaycan Respublikasına mənsub hava gəmilərinin dövlət qeydiyyatına, xarici dövlətə mənsub hava gəmilərinin dövlət uçotuna alınmadan istismarına görə fiziki şəxslər 5000 manat məbləğində, vəzifəli şəxslər 10 min manat məbləğində, hüquqi şəxslər 50 min manat məbləğində cərimə ediləcək.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olundu.

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, ”Dövlət rüsumu haqqında" və “Lisenziyalar və icazələr haqqında” qanunlara təklif edilən dəyişikliklərə görə, yanacaqdoldurma obyektlərinin fəaliyyəti də lisenziya tələb olunan fəaliyyət növünə aid ediləcək. Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin xüsusiyyətləri nəzərə alınmaqla Qanunun 1 nömrəli əlavəsinin 10-cu maddəsində nəzərdə tutulmuş fəaliyyət növünə münasibətdə bir sıra tələblər müəyyən olunur. Bu fəaliyyət növünə lisenziya verilərkən lisenziyanın verildiyi tarixdən 30 gün müddətində lisenziya sahibi ilə lisenziya verən orqan arasında lisenziya müqaviləsinin bağlanması tələbi, əks halda lisenziyanın hüquqi nəticələr yaratmaması müəyyən olunur. Müvafiq olaraq yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına görə dövlət rüsumu müəyyənləşir. Layihəyə əsasən, yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılmasına lisenziya verilməsi üçün 1100 manat dövlət rüsumu, yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına lisenziya verilməsi üçün isə 2500 manat dövlət rüsumu müəyyən edilir.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

# ABŞ-ın ən güclü silahı - Trampın blefi, yoxsa...

## Ekspertlər Amerika prezidentinin hədəfində olan ölkələri açıqladı: bu nə silahdır belə?

**“Amerika Birləşmiş Ştatları dünyada heç kimin haqqında məlumatı olmadığı ən güclü silaha malikdir”. Bu barədə ABŞ Prezidenti Donald Tramp Ağ Evdə mətbuat nümayəndələri ilə görüşü zamanı bildirib. “Bizim heç kimin zərrə qədər təsəvvürü olmayan silahımız var. Bu, dünyada ən güclü silahdır”, - deyə Tramp vurğulayıb. Bununla belə o, söhbətin hansı silahdan getdiyini açıqlamayıb.**

Bu nə silahdır belə? Tramp bununla ilk növbədə hansı dövlətlərə mesaj göndərmək istəyib?

Məlumat üçün tarixə ekskursiya edək. Belə ki, Tramp hələ birinci prezidentliyinin son aylarında, daha dəqiq desək, 2020-ci ilin may ayında bəyan etmişdi ki, ölkəsi tezliklə tarixin ən güclü silahlarına sahib olacaq. Tramp o zaman “Crew Dragon” kosmik gəmisinin Florida ştatında yerləşən kosmodromdan havaya qalxmasından sonrakı çıxışında demişdi.

Ağ Ev sahibi bəyan etmişdi ki, o, artıq yeni silahların hazırlanması ilə tanış olub: “Tezliklə biz Marsa enəcəyik və tarixin ən güclü silahlarına sahib olacağıq. Mən artıq silahların hazırlanması ilə tanış olmuşam, hətta mən buna inana bilmirəm”.



Azərbaycan Müdafiə Nazirliyinin hərbi polisinin keçmiş rəisi, polkovnik Rövşən Məhərrəmov bir sıra ehtimallar irəli sürdü: “Açığı, bu bir qədər çətin cavab verilməli mövzudur. Çünki məxfi silahların olub-olmamasını biz bilə bilmərik. Bu, kosmosla da, nüvə silahı ilə bağlı da ola bilər. Dəniz və okeanda bilirsiniz ki, ABŞ-ın böyük təyyarə daşıyan gəmiləri var. Bununla bağlı da ola bilər. Biz sadəcə ehtimallar üzərində danışa bilərik. Amerikanın bir trilyona çatan hərbi büdcəsi var. Onun içərisində olduqca böyük institutlar çalışır, müasir silahların tapılması istiqamətində ciddi nailiyyətlər əldə olunmaqdadır. Onların güclü hava hücumundan müdafiə qüvvələri var. Olduqca güclü təyyarələr istehsal ediblər. Pilotsuz uçuş təyyarələri də istehsal olunur. Ümumi olaraq isə Trampın nəyi nəzərdə tutduğunu biz bilmirik. Çünki çıxışı zamanı o bir ipucu verməyib ki, biz də onun ucundan yapışıb təhlillər aparaq, nələrsə ortalığa çıxaraq. Hesab edirəm ki, bu çox məxfi bir silahdır.

Düşünürəm ki, bu silah daha çox kosmosla bağlı ola bilər. Bu sadəcə güman etdiklərimdir. Başqa silahların olması da istisna deyil. ABŞ-ın elmi, iqtisadiyyatı imkan verir ki, ordusunu bir nömrəli güclü ordu kimi daim saxlasın. Onun üçün də büdcəsindən böyük maliyyə ayırır ki, gələcəkdə də dünyanın lider ölkəsi kimi mövcudluğunu qoruyub saxlasın. Trampın çıxışına baxdım. Orada konkret olaraq heç bir şey demir. Sadəcə deyir ki, biz belə bir silah istehsal etmişik. İndi Böyük Britaniyanın hərbi yönlü universitetinə baxdım, onu da oxudum. Gördüm orada da heç bir şey yoxdur. Fikrim budur ki, hər hansı bir silah istehsal etsələr də, onu bu günləri məxfi saxlayacaqlar, heç bir açıqlama verməyəcəklər. Bilirsiniz ki, onların aviasiyaları çox güclüdür. Əgər Ağ Ev sahibi belə açıqlamalar verirsə, burada ehtimal budur ki, daha çox kosmosla bağlıdır. Ehtimalım budur".

Siyasi təhlilçi Sona Əliyeva Trampın daha çox nəyi nəzərdə tutduğundan söz açdı: “Amerika Birləşmiş Ştatlarının sahib olduğu ən güclü silah heç də hopersonik, səsdən güclü nüvə silahları deyil. Onların əlindəki ən güclü silahlar iqtisadi karparasiyalar, iqtisadi rıçaqlardır. Donald Tramp da iqtisadi gücü nəzərdə tutur. Düşünürəm ki, bu güc vasitəsilə hazırda Birləşmiş Ştatlar bütün dünyanı, o cümlədən Qərbi, Çini və Rusiyanı öz məngənəsində saxlaya bilir. Bu baxımdan, ABŞ-ın qarşısında dura biləcək hər hansı bir güc yoxdur. Strateji nüvə silahları da dünyada böyük güc deməkdir. Amma onun dağıdıcı gücü də iqtisadi müharibələrin gücü qarşısında olduqca zəif görünür. Düşünürəm ki, Tramp administrasiyası yaxın dörd il ərzində bütün dünyanı iqtisadi nüvə silahı ilə öz caynağına keçirməyə çalışacaq. Burada əsas hədəf Rusiyanın təbii ehtiyatları və Çinin resurslarıdır. Çinin iqtisadi çöküşünə nail olmadan heç nəyə nail olmaq mümkün deyil. Artıq Birləşmiş Ştatların aparıcı beyin mərkəzləri Çinin iqtisadi hegomonluğuna son qoymaq üçün hərəkətə keçiblər. Onun iqtisadi qabiliyyətini azaltmaq üçün xammal aldığı ölkələrə qarşı sərt addımlar atılır. Pekin isə əks həmlələr etmək niyyətindədir. Çünki iqtisadi sistemin pozulması Çin kimi milyard yarımlıq ölkənin sürətli çöküşü və tənəzzülü ilə nəticələnəcək. İndi ABŞ Səudiyyə Ərəbistanı və Hindistan vasitəsilə Çini oyundan çıxarmağa çalışır. Ərəblərin pulu və hindlilərin ucuz işçi qüvvəsi Tramp administrasiyasının ən ağılagəlməz iqtisadi nüvə silahı hesab olunur”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Bu gün ABŞ-İran danışıqları başlayır - gözlənti...

## Vaşinqtonla Tehran xəttində nələr baş verir? - təhlil



**Bu gün, aprelin 12-də Omanda ABŞ-İran nüvə danışıqları başlayacaq. Danışıqlarda İran tərəfini xarici işlər naziri Abbas Əraqçi, ABŞ-ı isə prezident Donald Trampın Yaxın Şərq üzrə xüsusi təmsilçisi Stiv Uitkoff təmsil edəcək. Əlbəttə, ilk görüşdən hansısa sensasiyalı nəticənin olacağını gözləmək sadəlövhlük olardı. Üstəlik, danışıqlarla bağlı bəzi mübahisəli məqamlar hələ də qalır. Bunlardan birincisi danışıq formatıdır. ABŞ tərəfi prezident Tramp səviyyəsində elan edib ki, Oman danışıqları birbaşa olacaq. Yəni İran və ABŞ təmsilçiləri qarşı-qarşıya oturub müzakirələr aparacaq.**

İran tərəfi isə bunu inkar edir, danışıqların vasitəli olacağını bildirir. Söhbət daha əvvəl olduğu kimi, ABŞ və İran təmsilçilərinin ayrı-ayrı otaqlarda əyləşməsi və vasitəçilərlə - güman ki, omanlı diplomatların - müzakirə aparmasından gedir.

Yeri gəlmişkən, bu ilin əvvəlində ABŞ-İran danışıqları məsələsi gündəmə gələndə İran tərəfi etiraf etmişdi ki, Omanda vasitəçilər formatında ABŞ-İran danışıqları aparılır.

İkinci - hələ də açıq qalan məsələ danışıqların mövzusudur. İran tərəfi bildirir ki, danışıqların yeganə mövzusu İranın nüvə fəaliyyətləri və ABŞ-ın İrana qarşı sanksiyaları olacaq. Bunu ən son olaraq Əraqçi Əlcəzairdə səsləndirib.

Lakin amerikalılar israr edir ki, danışıqlarda təkcə nüvə məsələsi deyil, daha əvvəl prezident Trampın açıqladığı kimi, İranın ballistik raket proqramı və Yaxın Şərqdə “müqavimət oxu” adlandırdığı silahlı qruplara dəstəyi məsələsi də müzakirə olunacaq. İran tərəfi isə raket proqramı və “müqavimət oxuna” dəstəyin müzakirə mövzusu olmayacağını bildirir.

ABŞ tərəfi danışıqlara Trampın “ənənəvi” metodu ilə hazırlaşıb. ABŞ ordusu İran ətrafına - Yaxın Şərq və Hind okeanı hövzəsinə əlavə gəmilər, o cümlədən, təyyarədaşıyan gəmilər və U-2 strateji bombardmançı təyyarələri yerləşdirib. ABŞ müdafiə naziri Pit Heqset deyib ki, bölgəyə yerləşdirilən hərbi təyyarələrin istifadəsi İranın danışıqlardakı tutumundan asılı olacaq. Yəni dolayısı ilə danışıqlar uğursuz olacağı halda İrana zərbələrin aktual olacağına işarə edib.

İran isə öz növbəsində ABŞ-la danışıqların uğurlu olmasının etimadla bağlı olduğunu deyir. Rəsmi Tehran Donald Trampın 2018-ci ildə prezident olduğu dövrdə İranla “altılıq” ölkələri (ABŞ, Çin, Rusiya, Böyük Britaniya, Fransa və Almaniya) arasında imzalanmış və BMT TŞ tərəfindən təsdiqlənmiş nüvə sazişindən çıxdığını əsas gətirərək ABŞ-ın danışıq və öhdəliklərə sadiq olması şərtini irəli sürür. Həm ali dini lider Ayətullah Əli Xamenei, həm də prezident Məsud Pezeşkian bildirib ki, İran şərəfli bir razılaşma istəyir. ABŞ-ın təhdid və təzyiq siyasətini qəbul etməyəcək.

Qeyd edək ki, bir sıra iranlı və bölgə ekspertləri Oman danışıqlarının müsbət nəticə verməsi ehtimalının az olmadığını düşünür. Çünki bir çoxlarına görə, ABŞ prezidenti Donald Tramp İsrail hakimiyyətinin bütün təzyiqlərinə rəğmən, İranla hərbi münaqişəyə girmək istəmir. Çünki bu halda dünya bazarında neft qiymətlərinin kəskin bahalaşması baş verə bilər ki, bu da Trmapın planlarına ziddir. İkinci tərəfdən müharibə bölgədə yeni xaos və fəlakətə səbəb ola bilər, nəhayət, Vaşinqton üçün ağır hərbi xərclər və itkilərə səbəb ola bilər.

İranın isə son illərdə kəskin şəkildə artan sosial-iqtisadi böhrandan çıxmaq üçün sanksiyaların yüngülləşməsinə ehtiyacı var. Sanksiyalar yüngülləşərsə, Tehran yenidən enerji bazarına qayıdar, neft hasilatını artıra bilər. Bu da İranda sosial-iqtisadi böhranın zəifləməsinə səbəb ola bilər.

Digər tərəfdən, İranda mühafizəkar qanad, xüsusən də hərbi elita - SEPAH - dini liderə nüvə silahı yaratmaqla bağlı icazə verməsi üçün təzyiqi artırır. ABŞ-la danışıqların nəticəsiz olması və hərbi eskalasiya İran mühafizəkarlarının mövqelərini gücləndirəcək. Bu səbəbdən də hazırda islahat qanadı və eləcə də mötədil xətt tərəfdarları nüvə danışıqlarının baş tutmasına çalışır. Təbii ki, bu məsələdə Vaşinqtonun hərəkətləri həlledici olacaq.

Xarici faktor kimi İran-ABŞ danışıqlarında İsrail və Rusiyanın mövqeyindən asılı olacaq. Məsələ ondadır ki, Tehran-Vaşinqton danışıqlarında açıq görünməsə də, Moskvanın ciddi təsiri var. Rusiya rəhbərliyi Trampla həm də Yaxın Şərq siyasətində anlaşmalıdır. Burada isə əsas “qırılma nöqtəsi” İrandır. Bu mənada Rusiya çox aşkar şəkildə olmasa da, ABŞ-İran danışıqlarında əsas vasitəçilərdən biridir.

İsrail isə Trampa İrana qarşı daha sərt addımlar atması üçün təzyiq edir. Oman danışıqları ilə bağlı ilkin razılaşma onu göstərir ki, ABŞ rəhbərliyi indiki mərhələdə Netanyahunun İranla bağlı mövqeyini bölüşmür. Lakin bu, İsrail baş nazirinin Tramp üzərindəki təsirinin azaldığı mənasına gəlmir. İsrail rəhbərliyi bütün imkanları ilə danışıqların uğursuz olması və ABŞ-ın İrana qarşı gücdən istifadəsinə çalışır. Lakin Trampın İranla bağlı mövqeyi və eləcə də İsrail daxilindəki siyasi gərginlik “hələlik” Oman danışıqlarının baş tutması ehtimalını yüksəldir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**Musavat.com**



## Sabiq məmurun oğlu alimenti ödəmir

### Oliqarx Mikayıl İsmayılovun övladı testdən də yayındı

**Oliqarx, SOCAR-ın sabiq vitse-prezidenti Mikayıl İsmayılovun oğlu Orxan İsmayılzadənin bioloji qohumluğun təyini - atalıq testindən keçməsi üçün daha bir məhkəmə instansiyası - Bakı Apellyasiya Məhkəməsi qərardad çıxarıb. Ekspertiza keçirilməsi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Məhkəmə Tibbi Biologiya şöbəsinə həvalə olunub.**

Dünən, aprelin 11-i, saat 11-ə təyin olunan ekspertizaya Fidan Abbasova və övladı gediblər. Lakin Orxan İsmayılzadə ekspertizaya qatılmayıb. Fidan Abbasovanın sözlərinə görə, Mikayıl İsmayılovun oğlu Orxan İsmayılzadə ilə 2012-ci ilin may ayında faktiki nikahı baş tutub. Faktiki nikahı rəsmi nikaha çevirənədək cavabdehlə birlikdə yaşayıb, faktiki ailə münasibətləri 3 sentyabr 2016-cı ilədək davam edib.

"Faktiki nikahımızdan 5 may 2015-ci il tarixdə Nil adlı övladımız anadan oldu, lakin Orxan uşağın atası ilə bağlı nə rəsmi nikaha düşdü, nə də atalığı qəbul etdi. Dedi, ailəsi buna razı deyil, o da ailəsinin sözünü yerə sala bilməyəcək. Orxanın atası Mikayıl İsmayılov həmin vaxt yüksək vəzifəli məmur idi və istədiyi kimi istədiyi şəxsə təzyiq etmək imkanında idi. O zaman Sabunçu Rayon Məhkəməsində iddia qaldıraraq övladımın atasının müəyyən edilməsini xahiş etdim. Məhkəmə prosesinin gedişatında Mikayıl İsmayılov şəxsən mənimlə görüşdü. Onların adının məhkəmələrdə hallandırılmamasını xahiş etdi. Dedi ki, əgər iddiamı geri çəksəm, Orxan məhkəmədən kənar şəkildə bütün məsələni həll edəcək və övladımızın atası olmasını etiraf edəcək".

Fidan Abbasova deyib ki, qarşı tərəfin yalan vədinə inanıb və ərizəsini məhkəmədə geri çəkib: "Məni aldatdılar, iddiadan imtina etdirdilər. Daha sonra isə mənə artıq-əskik nəsə danışsam, ciddi problemlər yaradacaqları barədə hədə-qorxular gəlməyə başladılar".

Fidan Abbasovanın vəkili Ziya Ələsgərov Musavat.com-a demişdi ki, müvəkkilinə qarşı qanunsuz addımlar atılır.

Yada salaq ki, Orxan İsmayılzadə bundan öncə də ekspertizada iştirak etməkdən yayınıb. Sabunçu və Xətai rayon məhkəmələrində iş üzrə proseslər keçirilərkən hakimlər obyektiv qərarın verilməsi üçün ekspertiza keçirilməsi barədə qərar vermişdilər.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

# Əhalini ən çox aldadan şirkətlər - "Kontakt Home", "Baku Electronics" və...

## Son 5 ilin şikayət palitrasındakı mağazalar şəbəkəsinin adları çəkildi; mütəxəssislər vətəndaşları bu addımları atmağa çağırdı

**"2025-ci il başlayandan bəri AİB-ə 100-ə qədər şikayət ünvanlanıb. Onun əksəriyyəti telefon zəngləri şəklində daxil olub. Azərbaycanda 5 ilin şikayət palitrasına nəzər salsaq, görərik ki, ən çox "trend" olan texniki cihazlardan olan şikayətlərdir. Bura mobil telefonlar, məişət avadanlıqları və digər məhsullardan olan şikayətləri aid edə bilərik. Sanki bu işlə məşğul olan firmalar arasında istehlakçıları aldatmaq uğrunda "böyük yarış" gedir".**

"Yeni Müsavat" xəbər verir ki, bu sözləri Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov modern.az-a geniş müsahibəsində deyib. Onun sözlərinə görə, "Kontakt Home"un başçılıq etdiyi dırnaqarası yarışda onu "Baku Electronics" və digər şirkətlər təqib edir: "Qeyd edək ki, bu sahədə fəaliyyət göstərən biznes qurumları arasında haqqında şikayət az olanlar da var. Məsələn, "İrşad Telekom" və "Music Gallery" buraya aid edilə bilər. İkinci yerdə onlayn ticarətdə istehlakçı hüquqların pozulması gəlir. Burada da birinci yeri "Temu" tutur. Bunun sübutu olaraq ofisimizdə nümunələr də var. İstehlakçı saat sifariş edir, üzərində saat şəkli olan lövhə gəlir və s. Son illər artan xətt üzrə davam edən şikayətlər marketlərlə bağlıdır. Bu məsələdə də müxtəlif palitra mövcuddur. Burada birinci yerdə piştaxta və kassada qiymətlərin fərqli olmasıdır".

Göründüyü kimi, mütəxəssis kifayət qədər tanınan firmaların adlarını çəkib. Sosial şəbəkələrdə yayılan vətəndaş şikayətlərində də sözügedən mağazalar şəbəkələrindən narazılıqlara daha çox rast gəlmək olar. Xüsusən də "Kontakt home"dan kütləvi şikayətlər olur.

Bu narazılıqlara hansı amillər səbəb olur? Niyə şirkətlər öz nüfuzunu və reputasiyasını qorumaq barədə fikirləşmirlər?

Mütəxəssislərin fikrincə, bir sıra iri mağaza şəbəkələrinin reputasiyalarını qorumağa yetərincə önəm verməmələrinin arxasında bir neçə amil dayanır:

Nəzarətsizlik və boşluqlar: İstehlakçı hüquqlarını qoruyan qanunvericilik olsa da, onun icrası zəifdir. Dövlət qurumları tərəfindən ciddi monitorinq və cəza tədbirləri həyata keçirilmədiyi üçün şirkətlər öz bildikləri ilə hərəkət edirlər.

Tələb-təklif balansı: Bazarda rəqabət zəif olduğu üçün vətəndaşın alternativ seçimi azdır. İstehlakçılar eyni şirkətlərdən alış etməyə məcbur qalır və bu da həmin şirkətlərdə məsuliyyət hissini azaldır.

Qısa müddətli mənfəət hədəfi: Bir çox firma uzunmüddətli brend etibarı əvəzinə, qısa müddətdə maksimum gəlir götürməyə fokuslanır. Bu isə istehlakçı məmnuniyyətinin arxa plana keçməsinə səbəb olur.

Süni imic yaratmaq cəhdləri: Bəzi mağazalar reklam və sponsorlu tədbirlərlə özlərini nüfuzlu brend kimi təqdim etməyə çalışsalar da, real istifadəçi təcrübəsi və məmnuniyyəti bu imicə uyğun gəlmir.

Beləliklə, məsuliyyətsiz satıcılar artdıqca, alıcının inamı bir o qədər azalır. Bu isə ümumi bazar mədəniyyətinə ciddi zərər vurur.

Mövzu ilə bağlı hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a danışıb: "Söhbət əgər texniki avadanlıqlardan gedirsə, əlbəttə ki, belə mağazalar üçün keyfiyyət tam onların üzərində deyil. O baxımdan ki, sözügedən mallar bir qayda olaraq xaricdə istehsal olunur. Təbii ki, şirkətlər həmin məhsulları alıb ölkədə müştərilərə satırlar. Doğrudur, şirkətlər həmin məhsulları alarkən yoxlamalıdırlar, amma yenə də istənilən avadanlığın, məsələn, telefonun hansısa qüsurlarını vətəndaş onu işlətməyənə qədər bilməyə bilər. Onun satışını həyata keçirən ticarət şəbəkəsi də bəlkə heç bu qüsurdan xəbərsizdir. Amma hər bir belə avadanlığın bir qayda olaraq zəmanət müddəti var, bu müddət 1 ildir, bəzən daha uzun olur. Bu müddəti ya mağazaya istehsalçı verir, ya da istehsalçı ilə Azərbaycandakı ticarət şəbəkəsi arasında olan digər xarici bir şirkət zəmanət verir".

Onun fikrincə, bəli, bəzi hallarda ticarət şəbəkəsinin günahı olur, bəzən isə onların özləri də bilmirlər ki, satdıqları mallarda qüsur var: "Amma bu halda vətəndaş nə etməlidir? Qanunvericiliyimizə görə, 14 gün ərzində vətəndaşın ixtiyarı var ki, həmin məhsulu qaytarsın və ya onun keyfiyyətli məhsulla əvəz olunmasını mağazadan tələb etsin. Hətta əgər 14 gün keçibsə və bu müddətdən sonra qüsur aşkar olunubsa, yenə də mağaza bir il ərzində həmin qüsuru aradan qaldırmaq üçün təminat verməlidir. O ki qaldı bir məhsul sifariş edirsən, başqası gəlir, bəli, bu zaman birbaşa tədbirlər mağazanın günahıdır. Burada artıq istinad edə bilməzlər ki, bu istehsalçının günahıdır və sairə. Bu, birbaşa onların öz diqqətsizliyi ilə bağlıdır. Bəsniyə bu baş verir? Ona görə ki, Azərbaycanda hamımız şahidiyik ki, bu bazar getdikcə inhisarlaşır. Hətta bir neçə brend adı altında çıxış edən ticarət şəbəkələri əslində bir əldə cəmləşir. Belə olan halda onlar bilirlər ki, onsuz da alıcının başqa yolu yoxdur, gəlib yenə də onlardan alacaq. Əlbəttə ki, kimsə xarici ölkəyə gedib-gəlirsə, oradan özü üçün nəsə alıb gətirə bilər, amma əksəriyyət buradadır. Azərbaycan xalqının çoxu ya xaricə heç vaxt getməyib, ya da nadir hallarda gedib. Belə olan təqdirdə biz inhisarlaşmanın bütün mənfi təzahürlərini görürük. İnhisarlaşanda müəssisə üçün artıq müştəri məmnuniyyəti əsas olmur. Onlar ucuz işçi axtarır, daha az maaş vermək, amma daha çox qazanmaq istəyirlər. Bu da həm işçilərin keyfiyyətli xidmət göstərməsinin azalmasına gətirib çıxarır, həm də əvvəllər bir işi 10 nəfər görürdüsə, indi onu 6-7 nəfər görür.

Bu halda nə etmək lazımdır? Bu halda vətəndaş 14 gün ərzində məhsulun dəyişdirilməsini tələb edə bilər. Həmçinin Antiinhisar və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə də şikayət edə bilər. Həmin ticarət şəbəkəsinin cərimələnməsini tələb edə, istehlakçı hüquqlarının pozulmasına dair müraciət göndərə bilər. Bundan əlavə, mənəvi zərərin ödənilməsi iddiası ilə məhkəməyə də müraciət etmək hüququ var.

Onu da qeyd edim ki, Antiinhisar və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istənilən şikayətə baxır. Üstəlik, çox tez reaksiya verilir və mən şəxsən bunun şahidi olmuşam. Sadəcə bəzi istehlakçılar bu qurumun mövcudluğundan xəbərsizdir. Şikayət etmək lazımdır. Əgər şikayətlər edilsə, tədbirlər də görüləcək və həmin ticarət şəbəkələri də daha ehtiyatlı davranacaqlar".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

# Yağ alarkən bunlara diqqət edin! Ekspertdən xəbərdarlıq

## Ölkədə nehrə yağı adı ilə bitki yağları satışdadır; işbazlardan qorunmağın yolları budur ki...

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaxılabilən və qatı yağ məhsullarından götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində iki istehsalçıya məxsus iki məhsulda uyğunsuzluqlar aşkarlanıb. Bu barədə AQTA-dan məlumat verilib. Bildirilib ki, bitki tərkibli spred yağlarının sellofanda qablaşdırılaraq nehrə yağı təəssüratı yaratmaqla istehlakçıların aldadıldığı müəyyən edilib.**

Bundan başqa "Krestyanskoye" əmtəə nişanlı spred yağında koliform bakteriyalar, kif və maya göbələkləri aşkarlanıb. Faktla bağlı qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, istehsalçılar inzibati məsuliyyətə cəlb olunub, uyğunsuzluq müəyyən edilmiş məhsulların satışının qadağan edilməsi və ticarət obyektlərindən geri çağırılması barədə qərar qəbul edilib. Alıcı aldanmamaq üçün nələrə diqqət etməlidir? Saxta kərə yağını necə tanımalı, işbazların toruna düşməmək üçün nə etməli?

İstehlakçılar saxta yağlardan və keyfiyyətsiz məhsullardan qorunmaq üçün bir neçə vacib məqama diqqət yetirməlidirlər. Ekspertlər saxta kərə yağını tanımaq və aldanmamaq üçün bəzi tövsiyələri qeyd edirlər. İlk olaraq etiket və qablaşdırmaya diqqət edilməlidir. Məhsulun üzərində rəsmi qeydiyyatdan keçmiş və tanınmış əmtəə nişanı olmalıdır. Tərkibi diqqətlə oxumaq lazımdır, "bitki yağları", "spred", "marqarin" kimi ifadələr varsa, bu, kərə yağı deyil. İstehsal və son istifadə tarixi: aydın, pozulmamış və oxunaqlı olmalıdır. Rəsmi icazə və sertifikat: AQTA-nın qeydiyyat nişanı və ya istehsal müəssisəsinin qeydiyyat nömrəsi yazılmalıdır. İkincisi, qablaşdırma forması ilə bağlıdır. Əsl kərə yağı adətən folqa və ya karton qablaşdırmada olur. Sellofanda təqdim olunan məhsullar şübhə doğurmalıdır. Nehrə yağı adı ilə satılan bəzi məhsullar qablaşdırma ilə istehlakçını aldatmağa çalışır. Təbii nehrə yağı adətən kənd təsərrüfatı yarmarkalarında və ya birbaşa fermerdən alınır, lakin sənaye qablaşdırmasında təklif olunursa, diqqətli olun. Üçüncüsü, əsl kərə yağı açıq sarı rəngdə və yumşaq, təbii süd qoxusu ilə seçilir. Əgər yağa xas olmayan qəribə kəskin və ya sintetik qoxu varsa, bu saxtalığın əlamətidir. Eyni zamanda. kərə yağı otaq temperaturunda yumşalır, amma ərimir. Spred yağlar və marqarinlər otaq temperaturunda çox tez əriyir və sulu olur. Əsl kərə yağının dadı yüngül, südə bənzər olur. Saxta yağlar ya dadsız, ya da süni dadvericilərlə zəngin olur. Əsl kərə yağı nisbətən baha başa gəlir. Bazar qiymətindən çox ucuz məhsullar şübhə doğurmalıdır.

İstehlakçı hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "Alıcı bilməlidir ki, kərə yağları kəsiləndə parçalanıb tökülür. Dükana girdiyi zaman qablaşdırılmış yağları sıxsın, hansı bərkdirsə, o daha çox kərə yağıdır. Əlbəttə, kərə yağını əridəndə də özünü büruzə verir. Ölkədə bir neçə yağ var ki, onların üzərinə inək şəkli çəkib, "naturalnoe maslo" yazılıb və sairə.

Bu cür şəkillərə, yazılara inanmasınlar. Biz AQTA ilə iş aparırıq ki, bitki yağının mənbəyi yazılsın. Palmadır, günəbaxandır və sairə. Çox təəssüf ki, bu məsələ də həll olunmamış qalır. Bir çox ölkələrdən Azərbaycana kərə yağları gətirilir. Uzun müddət Azərbaycana gətirilən kərə yağının qiymətinin nisbətən ucuz olması barədə şikayətlər gəlirdi".




E.Hüseynovun sözlərinə görə, 6 il öncə Zelandiyaya gedib: "O zaman bizim oradakı həmkarların köməyi ilə Azərbaycana yağ göndərən "Vestgold" markalı yağların zavodunda oldum. Azərbaycan dilində markalanmasını gördüm. Fermer təsərrüfatında oldum, qiymət monitorinqini apardım və gördüm ki, heyvanlar orada qış yemi yemirlər. Daim təbii yemlərlə yemlənirlər, ona görə Azərbaycana bu qiymətə gəlib çatır. Demək istəyirəm ki, xarici ölkələrdən də ölkəmizə təmiz yağlar gətirilir. AQTA ciddi iş görür ki, etiket məlumatları ilə yağın tərkibindəki məlumatlar eyni olsun. Bu yaxşı haldır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Azərbaycanda repetitorluq bu halda ləğv ediləcək - Ekspert deyir ki...

## Kamran Əsədov: "Əgər o yanaşmalar həyata keçirilərsə, gələcəkdə repetitorluq ehtiyacdan çıxa bilər"

**"Repetitorluq direktivlə ləğv edilən sahə deyil". "Yeni Müsavat" bildirir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində bildirib. O qeyd edib ki, məktəbin nüfuzu qalxdıqca repetitorluğun nüfuzu düşəcək: "Ancaq repetitorluq və onun kimi başqa hansısa prosesi nazir əmri, Milli Məclis qərarı ilə dayandıra bilmərik".**

Bəs nazirin əmri ilə olmasa da, nə vaxtsa repetitorluğun ləğvi mümkünmü? Bu yöndə dövlətin edə biləcəkləri nədir?



Təhsil eksperti Kamran Əsədov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, repetitorluq hazırda Azərbaycanın təhsil sistemində paralel və qeyri-rəsmi şəkildə mövcud olan, lakin sistemin içindən qidalanan bir fenomendir: "2023-cü ildə aparılan qeyri-rəsmi sorğulara əsasən, Bakı şəhərində 11-ci sinif şagirdlərinin 78 faizi heç olmasa bir fənn üzrə repetitor yanına gedir. Regionlarda bu göstərici bir qədər aşağı olsa da, artmaqda davam edir. Bu isə göstərir ki, repetitorluq artıq istisna hal deyil, geniş yayılmış sosial davranış modelidir. Əgər bir fenomen geniş yayılıbsa, deməli onun səbəbləri sistematikdir və fərdi seçimdən daha çox struktur zəifliklərinin nəticəsidir".

Ekspertə görə, ödənişli repetitor dərsləri sosial təbəqələşməni artırır və maddi imkanı olan şagirdlərlə olmayanlar arasında ciddi fərqlər yaradır: "Bu, təhsil nəticələrinin ədalətli bölgüsünə ciddi şəkildə mənfi təsir göstərir. Bununla belə, repetitorluğun mövcudluğunun səbəbləri dərindən araşdırıldıqda, onun yalnız ailələrin təşəbbüsü ilə deyil, məktəb sistemindəki keyfiyyət çatışmazlıqları ilə bağlı olduğu aydın görünür. Bir çox məktəbdə tədris proqramı sadəcə kurikulumun icrasına yönəlib, şagirdin qəbul imtahanlarına sistemli şəkildə hazırlanması isə nəzərə alınmır. Müəllimlərin əlavə gəlir əldə etmək məqsədilə məktəbdə əsas bilikləri verməyib repetitor kimi fəaliyyət göstərməsi də etiraf edilməli acı reallıqdır. Bu isə məktəbdə verilən biliklərin səmərəliliyinə olan inamı sarsıdır və repetitorluğa tələbi artırır".

K.Əsədovun fikrincə, müsbət cəhət ondan ibarətdir ki, repetitorluq bəzi hallarda fərdi yanaşma və şagirdin potensialının tam inkişafı üçün real imkan yaradır: "Məktəblərdə 30 nəfərlik siniflərdə fərdi yanaşma, demək olar ki, mümkün deyil. Amma repetitor yanına gedən şagirdlər daha çox diqqət və fərdi izah alır. Bu isə nəticəyə müsbət təsir edir. Amma bu nəticə yalnız fərdi səviyyədədir və sistemin bütövlükdə keyfiyyətini yüksəltmir. Dünya təcrübəsi göstərir ki, repetitorluq yalnız zəif təhsil sistemlərinə xas deyil. Hətta inkişaf etmiş ölkələrdə də müəyyən mərhələlərdə repetitorluğa müraciət halları var. Məsələn, Cənubi Koreyada repetitor sənayesi (hagwon sistemi) çox güclüdür, lakin dövlət bu sahədə ciddi nəzarət və lisenziyalaşdırma mexanizmləri tətbiq edir. Finlandiyada isə repetitorluğa ehtiyac çox azdır, çünki məktəb təhsili yüksək keyfiyyətlidir və təhsil bərabərliyi təmin olunub. Bu ölkədə şagirdlərin 95%-dən çoxu repetitorluq olmadan universitetə qəbul ola bilir. Bu isə göstərir ki, təhsil sistemi gücləndikcə, repetitorluq təbii şəkildə zəifləyir".

Ekspert də hesab edir ki, repetitorluğun inzibati yollarla, nazir əmri və ya Milli Məclis qərarı ilə ləğvi mümkün deyil: "Təhsilin idarə olunmasında fərqli yanaşmaların tətbiqi vacibdir. Məsələn, ABŞ-da "Response to Intervention" (RTI) modeli ilə məktəb daxilində ehtiyacı olan şagirdlər üçün mərhələli şəkildə əlavə dəstək göstərilir. Bu model Azərbaycanın təhsil sistemi üçün də adaptasiya edilə bilər. Əlavə olaraq, müəllimlərin motivasiyası və maaşlarının artırılması, peşəkar inkişaf proqramlarının stimullaşdırılması repetitorluğun qarşısının alınmasında mühüm rol oynaya bilər. Çünki hazırda bir çox müəllim, məktəbdə verdiyi dərslərin yanında əlavə repetitorluqla dolanışığını təmin edir. Bu isə təhsildə maraqların toqquşmasına səbəb olur.

Repetitorluğun nəzarətsiz və qeyri-rəsmi şəkildə fəaliyyət göstərməsi həm vergi itkilərinə, həm də təhsildə şəffaflıq probleminə yol açır. Dövlət bu sahədə minimal tənzimləmə və qeydiyyat sistemini tətbiq edərək həm şəffaflığı artıra, həm də keyfiyyəti izləyə bilər. Bu zaman repetitor fəaliyyəti lisenziyalaşdırılmalı, keyfiyyət göstəricilərinə görə qiymətləndirilməli və təhsil siyasətinə inteqrasiya edilməlidir.

Əgər bu yanaşmalar həyata keçirilərsə, gələcəkdə repetitorluq ya ümumiyyətlə ehtiyacdan çıxar, ya da formal təhsil sisteminə dəstək verən tənzimlənmiş mexanizmə çevrilər".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

# Ölkəmizin valyuta ehtiyatları: Proqnoz nikbindir, reallıq necə olacaq?

## Azərbaycan ticarət şərtlərini yaxşılaşdıra bilər - o halda ki...

**Azərbaycanın strateji valyuta ehtiyatları 2025-ci ildə 71,67 milyard dollar təşkil edəcək. Bu pronozla Beynəlxalq Valyuta Fondu (BVF) çıxış edib. Fond analitiklərinə görə, 2026-cı ildə Azərbaycanın strateji valyuta ehtiyatları 72,36 milyard dollar, 2027-ci ildə 72,22 milyard dollar, 2028-ci ildə 71,75 milyard dollar, 2029-cu ildə isə 72,18 milyard dollar olacaq.**

Strateji valyuta ehtiyatlarının əsas hissəsini Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri təşkil edir. IMF hesab edir ki, ARDNF-nin aktivləri 2025-ci ildə 60,91 milyard dollar, 2026-cı ildə 61,797 milyard dollar, 2027-ci ildə isə 61,864 milyard dollara qədər artacaq. 2028-ci ildə 61,594 milyard dollara qədər azalan aktivlər 2029-cu ildə 62,222 milyard dollara yüksələcək.

BVF Azərbaycan Mərkəzi Bankının (AMB) ehtiyatlarının isə qarşıdakı beş ildə azalan dinamika göstərəcəyini proqnozlaşdırıb. Belə ki, Fond analitikləri bu il AMB-nin valyuta ehtiyatlarının 10,76 milyard dollar, gələn il 10,56 milyard dollar, 2027-ci ildə 10,36 milyard dollar, 2028-ci ildə 10,16 milyard dollar, 2029-cu ildə isə 9,96 milyard dollara qədər azalacağını proqnozlaşdırıb(APA).

Məlumdur ki, valyuta ehtiyatlarının dəyişməsi ölkənin tədiyə və cari əməliyyatlarlar balansının vəziyyətindən asılıdır. IMF-də hesab edirlər ki, 2025-ci ildə Azərbaycanın cari əməliyyatlar balansı (CƏB) ÜDM-in 7,8 faizi həcmində profisitli olacaq. Digər proqnozlar nəzərə alınmaqla IMF 2025-ci ildə ölkədə CƏB-in profisiti ilə bağlı gözləntilərini 6,1 milyard dollar həcmində müəyyən edib.

Fond növbəti illərdə CƏB-in profisitinin azalacağını, 2028-2029-cu illərdə isə cari əməliyyatlar balansında kəsir yaranacağını proqnozlaşdırıb. İMF hesab edir ki, 2026-cı ildə Azərbaycanda CƏB-in profisiti 4,9 faizə, 2027-ci ildə isə 1,3 faizə enəcək. IMF 2028-ci ildə CƏB-in kəsirinin 1,7 faizə, 2029-cu ildə isə 2,5 faizə kimi artacağını gözləyir.

S&P Global Ratings" beynəlxalq kredit reytinq agentliyinin də göstərici ilə bağlı qiymətləndirməsi IMF-ə yaxındır. Agentliyin proqnozuna görə, bu il CƏB profisiti ÜDM-in 6,9 faizini, 2026-cı ildə 5,7 faizini, 2027-ci ildə isə 4,6 faizini təşkil edəcək, 2028-ci ildən defisitə keçəcək.

Dünya Bankının (DB) yanaşmasında isə ciddi fərq var. Belə ki, DB 2025-ci ildə Azərbaycanda CƏB-in ÜDM-in 11,6 faizi qədər olacağını proqnozlaşdırır. Bank ekspertlərinə görə, CƏB üzrə profisit 2026-cı ildə ÜDM-in 5,4 faizi, 2027-ci ildə 3,8 faizi, 2028-ci ildə 3,6 faizi, 2029-cu ildə isə 3,4 faizi qədər olacaq.



Qeyd edək ki, 2024-cü il üzrə Azərbaycanın cari əməliyyatlar balansının profisiti 4,7 milyard dollar təşkil edib. Azərbaycan Mərkəzi Bankı 2025-ci il üzrə isə CƏB-in profisitini 5,5 milyard dollar həcmində proqnozlaşdırıb.

CƏB-in tərkibində ən mühüm paya malik xarici ticarət balansında 2024-cü ildə müsbət saldo 3 dəfə azalaraq 5,5 milyard dollara bərabər olub. 2025-ci ilin yanvar-fevral aylarında bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 3,7 dəfə azalmaqla 628,45 milyon dollar təşkil edib.

Xarici ticarətimizdə ixrac 0,3 faiz azalıb, idxal isə 69,1 faiz artıb. Dünya bazarında neft qiymətlərinin kəskin azalması fonunda ikinci rübdə xarici ticarət balansında müsbət saldonun defisitlə əvəz olunması gözlənilir. BŞ prezidenti Donald Trampın başlatdığı ticarət müharibəsi dünya neft bazarında qiymətlərin 62-63 dollara qədər ucuzlaşmasına səbəb olub. O cümlədən Azərbaycan neftinin qiyməti 65 dollara qədər düşüb. Neft hasilatındakı təbii azalmanı da nəzərə alsaq, qiymətlərin büdcədə nəzərdə tutulan 70 dollarlıq həddən uzun müddət aşağı olmasının büdcə gəlirlərinin təmin olunmasında problemlərə səbəb olacağı gözləniləndir. Bu ilin birinci rübündə qiymətlər 70 dollardan yuxarı olub, amma bununla belə hasilatdakı azalma, qaz qiymətlərindəki artıma baxmayaraq, dövlət büdcəsinə daxilolmalarda azalmaya səbəb olub. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən bu ilin birinci rübündə neft-qaz sektorundan vergi daxilolmaları 1 milyard 154,2 milyon manat təşkil edib. Bu, 1 milyard 367,3 milyon manatın daxil olduğu 2024-cü ilin eyni dövrü ilə müqayisədə 15,6 faiz azalma deməkdir.

Yaxın illərin təcrübəsi göstərir ki, büdcə gəlirlərinin təmin olunmasında problem yarandıqda hökumət neft gəlirlərinin akkumulyasiya olunduğu Neft Fondundan daha çox xərcləməyə başlayır. Bu artıq xərcləmə ötən ildən 2025-ci ilin büdcəsində yer alıb: Dövlət Neft Fondundan büdcəyə transfert 14 milyard 481 milyon manat nəzərdə tutulub. Bu isə 2024-cü il üzrə ARDNF-dən büdcəyə transfertin həcmindən 13,3 faiz və ya 1,7 milyard manat çoxdur.

ABŞ-Çin ticarət müharibəsinin davamlı olması şəraitində dünyanın ən böyük istehlakçısı olan Çinin neft alışlarını kəskin azaldacağı proqnozlaşdırılır. Analitik mərkəzlərə görə, Çin qısa müddətdə ABŞ bazarından çıxan 700 milyard dollara yaxın məhsullar üçün alternativ bazar tapa bilməyəcək. Nəticədə, ölkədə istehsal azalacaq ki, bu da istehlakı - müxtəlif xammallara, o cümlədən enerji xammalına tələbatın azalmasına gətirib çıxaracaq. Bu isə xammal, xüsusilə də neft qiymətlərinə böyük təzyiq göstərməklə, onun 65 dollardan aşağıda qalmasına səbəb olacaq ki, bu da Neft Fondunun gəlirlərində azalmaya gətirəcək

Neft qiymətlərinin ucuzlaşması ilə yanaşı, qlobal ticarət müharibəsi Neft Fondunun xüsusilə qiymətli kağızlar və səhmlərə yatırımlarından gəlirlərini kəskin azalda bilər.

Neft hasilatı və qiymətlərinin düşməsi həm də Azərbaycanda iqtisadi artıma təsir edəcək. 2025-ci ilin birinci rübünün nəticələrinə əsasən bu artım cüzi səviyyədədir. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-mart aylarında Azərbaycanda 29 milyard 892,9 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz çoxdur.

İlk rübdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,8 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 2,5 faiz artıb. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə iqtisadi artım 4 faizə, o cümlədən neft-qaz sektorunda 0,4 faizə, qeyri-neft-qaz sektorunda isə 6,7 faizə bərabər olmuşdu.

ÜDM artımının zəifləməsində aparıcı rol sənayeyə məxsusdur. Rəsmi statistikaya əsasən sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-mart aylarında 15,8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az sənaye məhsulu istehsal edilib. Bu zaman neft-qaz sektorunda məhsul istehsalı 3,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,5 faiz artıb. Sənayenin mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,5 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 1,1 faiz artıb.

İqtisadi artımı sürətləndirə biləcək investisiya qoyuluşlarında da azalma diqqəti cəlb edir. DSK hesabatından aydın olur ki, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycanda əsas kapitala 3 milyard 467,7 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,1 faiz az investisiya yönəldilib. Rüb ərzində neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 24,2 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 2,4 faiz azalıb. Ötən ilin eyni dövründə iqtisadiyyata investisiya qoyuluşları 4 faiz, o cümlədən neft-qaz sektoruna 2,7 faiz, qeyri-neft-qaz sektoruna 4,8 faiz artmışdı.

Yeri gəlmişkən, IMF 2025-ci il üzrə Azərbaycanın iqtisadi artım proqnozunu 1 faiz bəndi artıraraq 3,5 faizə qədər yaxşılaşdırıb. Bununla belə, IMF hesab edir ki, 2025-ci ildə iqtisadi artım ötən ilə nisbətən yavaşlayacaq. Fond bunu neft və qaz hasilatının azalması, iqtisadiyyata qoyulan yeni sərmayələrin artım dinamikasının yavaşlaması ilə əsaslandırıb. Qeyd edilib ki, 2026-cı ildə iqtisadiyyat potensial istehsal səviyyəsinə daha da yaxınlaşacaq. Ölkə iqtisadiyyatında orta müddətdə isə 2,5 faiz artım gözlənilir: "Xarici iqtisadi mühitin orta müddətdə zəifləməsi gözlənilir, karbohidrogen istehsalının və qiymətlərinin azalması ilə ticarət profisitinin daralması və qeyri-karbohidrogen ixracatının zəifləməsi, lakin xarici valyuta ehtiyatlarının güclü qalması proqnozlaşdırılır. İnflyasiyanın orta müddətdə Mərkəzi Bankın hədəf diapazonu olan 4±2 faiz arasında qalacağı gözlənilir. Bu, beynəlxalq ərzaq və enerji qiymətlərinin nisbətən sabit qalması və fiskal mühafizənin davam etməsi ilə bağlıdır".

Fond ekspertlərinə görə, qeyri-neft sektorunda iqtisadi artım 2025-ci ildə 4, faiz, 2026-cı ildə 3,7 faiz, 2027-2029-cü illərdə isə orta hesabla 3,5 faiz təşkil edəcək.IMF sözügedən proqnozları ilə bağlı risklərin ümumilikdə balanslı olduğunu, lakin xarici qeyri-müəyyənliyin yüksək olduğunu vurğulayıb: "Neft və qazın tədarük və tələbdəki dalğalanmalar, enerji keçidindən və ya qlobal yavaşlamadan qaynaqlanan amillər karbohidrogen qiymətlərini azalda bilər ki, bu da iqtisadi artıma, xarici vəziyyətə və fiskal gəlirlərə əhəmiyyətli dərəcədə təsir edə bilər".

Digər risklərin təsiri isə daha qeyri-müəyyəndir: "Münaqişələrin intensivləşməsi, əgər karbohidrogen qiymətləri artarsa, Azərbaycanın ticarət şərtlərini yaxşılaşdıra bilər, əks halda ərzaq qiymətləri artsa, ticarət şərtlərini pisləşdirə bilər. Dərin parçalanma, qeyri-karbohidrogen sektorunun inkişafı və şaxələndirilməsi səylərinə zərər verə bilər, lakin əgər ticarət və investisiyalar bölgəyə yönləndirilərsə, bu, eyni zamanda imkanlar da yarada bilər. Daxili risklər, pro-siklik fiskal siyasətlər və kənd təsərrüfatı istehsalına, ərzaq təhlükəsizliyinə və inflyasiyaya təsir edə biləcək ekstremal iqlim hadisələrindən irəli gəlməkdə davam edir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (8671) 12 aprel 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Evdən qaçan yeniyetmələr - bu hallar niyə artıb...

## Xüsusən də qızlar arasında belə faktlar üstünlük təşkil edir; psixoloq burada bir neçə səbəb görür

**Son zamanlar medianı izləyən hər kəs eyni cür xəbər başlıqlarına tez-tez rast gəlir: “13 yaşlı qız itkin düşdü”, “Yeniyetmə evi tərk etdi”, “16 yaşlı qız evdən qaçdı”. Bu cür xəbərlər artıq nadir hadisə yox, narahatedici tendensiyaya çevrilib. Və ən acı həqiqət budur ki, evdən qaçan yeniyetmələr arasında qızlar üstünlük təşkil edir. Bəs niyə? Onlar nədən bu addımı atır? Hansı səbəblər bir uşağı, bir gənc qızı ailəsini tərk etməyə vadar edir?**



Heç bir uşaq “bir gün evdən qaçacağam” arzusu ilə böyümür. Bu, son anda verilmiş, ani qərar kimi görünsə də, arxasında çox zaman uzun müddət yığılıb qalan acılar, anlaşılmazlıqlar, qorxular və susqunluqlar dayanır. Psixoloqlar bildirir ki, yeniyetmə qızların evdən qaçmasının əsas səbəbləri arasında fiziki və ya psixoloji zorakılıq, ailədaxili soyuqluq, zorla ərə verilmə qorxusu, təhsildən məhrum edilmə, ifadə azadlığının olmaması və sosial mediada tanış olduqları təhlükəli münasibətlər dayanır. Bəzən isə sadəcə “məni başa düşən yoxdur” hissi kifayət edir ki, bir uşaq evindən, ailəsindən uzaqlaşsın.

Bəs ailə harda səhv edir? Mütəxəssislər deyir ki, burada ən böyük problem dinləməməkdir. Valideynlər çox zaman övladlarını dinlədiklərini düşünürlər, amma əslində onlara sadəcə nəzarət edirlər. Dinləmək - sadəcə eşitmək deyil, duymaq, başa düşmək və qəbul etməkdir. Qız uşağı bu anlayışı ailəsində tapmayanda, onu harada axtaracağını bilmir - və bəzən yanlış ünvana üz tutur.

Əlbəttə ki, bir qız evdən qaçırsa, bu, təkcə onun ailəsinin problemi deyil. Bu - məktəbin, müəllimin, qonşunun, psixoloqun, bir sözlə, bütün cəmiyyətin problemidir. Çünki evdən qaçan hər bir qız təhlükənin birbaşa qarşısındadır - istismar, zorakılıq, insan alveri, cinsi təzyiqlər və daha nələr-nələr... Bəzən isə bu qızlar “geri dönəcək ümidim yoxdur” deyərək həyatlarına son qoyur, intihar yolunu seçirlər.

“Evdən qaçan yeniyetmə tapıldı” xəbəri insanların narahatlığına bir qədər son qoyur, amma əsl problem o tapıldıqdan sonra başlayır. Niyə qaçdı? Evdə nədən qorxdu? Nə çatışmadı ki, yad əllərə güvəndi? Bu suallar cavabsız qalanda növbəti qaçışın qarşısını almaq mümkün olmur.

Mövzu ilə bağlı tanınmış psixoloq Azad İsazadə “Yeni Müsavat”a açıqlamasında yeniyetmə davranışlarını və evdən qaçma hallarının psixoloji əsaslarını izah edib: “Yeniyetməlik dövrü maksimum duyğular və emosional dalğalanmalar dövrüdür. Bu yaşda insan hər şeyə ya çox yaxşı, ya da çox pis kimi baxır - aralıq, balanslı yanaşma hələ formalaşmayıb. Xüsusilə də ailədə deyilən sözlərə yeniyetmələr bəzən qeyri-adi, həddindən artıq reaksiya verirlər. Evdən qaçmaq da bu maksimalist davranışın təzahürlərindən biridir”.

Azad İsazadə qeyd edib ki, yeniyetmənin evdən qaçmasına səbəb bir çox amil ola bilər: “Bəzən bu bir eşq münasibəti, bəzən ailə içində yaşanan münaqişə və ya psixoloji-fiziki zorakılıq olur. Valideynin övladına təzyiq göstərməsi, onu dinləməməsi və ya ona inanıb güvənməməsi də qaçış qərarını sürətləndirə bilər.

21-ci əsrdə sosial media və internetin təsiri altındakı gənclər daha erkən inkişaf edir, dünyaya baxışları dəyişir, gözləntiləri artır. Bəzən bu dəyişən dünyagörüşü ilə valideynlər arasında körpü qurmaq çətinləşir. Əvvəllər evdən qaçma halları olurdu, amma ailələr bunu gizlədirdi. İndi isə sosial şəbəkələr və media vasitəsilə bu hallar dərhal yayılır və cəmiyyətə bəlli olur.

Bəs valideyn harada səhv edir? Valideynlərin ən böyük səhvi övladla dost münasibəti qura bilməmələridir. Əgər ailədə valideynlə uşaq arasında səmimi, açıq, dostyana münasibət qurulmayıbsa, uşaq problem yaşadıqda valideyninə üz tutmur. Nəticədə, problemini içində böyüdür, heç kimlə paylaşmır və yanlış addımlar atır. İntiharlar da, qaçış qərarları da çox vaxt bu səbəblə baş verir”.

Psixoloq deyib ki, yeniyetmənin evdən qaçması cəmiyyətin görməli olduğu bir etiraz aktıdır - ailədaxili psixoloji problemin göstəricisidir: “Əgər bir uşaq evdən qaçırsa, ilk sual bu olmalıdır: valideyn olaraq mən harada səhv etdim? Problem çox zaman uşaqda yox, valideyndə və ailə sistemində olur. Uşağı günahlandırmaq çıxış yolu deyil”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Azərbaycanda məscidlər kifayət qədərdirmi? - rəy

## Kənan Rövşənoğlu: “Bakıda və Bakıətrafı bir neçə kənddə yaxın məscid ola bilər”

**Qırğızıstanın Dini Qurumlarla İş üzrə Dövlət Komissiyası əhalinin məskunlaşdığı yerlərdə məscidlərin, ibadət evlərinin və digər dini obyektlərin sayına məhdudiyyət qoyulmasını təklif edib. Hazırlanmış qanun layihəsinə görə, dini tikililər arasında məsafə ilə bağlı dəqiq standartların tətbiqi təklif edilir.**



Şəhərlərdə və rayon mərkəzlərində onlar bir-birindən ən azı dörd kilometr məsafədə olmalıdır. Kənd rayonlarında məscidlər bir-birindən ən azı üç kilometr, kiçik kəndlərdə iki kilometr məsafədə yerləşməlidir. Sənəd qüvvəyə minməzdən əvvəl tikilmiş dini binalar sökülməyəcək və məhdudiyyətlərə məruz qalmayacaq.

Bəs Azərbaycanda vəziyyət necədir? Məscidlərin sayı Qırğızıstanda olduğu qədər çoxdurmu və bir-birinə yaxındırmı? Ölkəmizdə məscid çatışmazlığı varmı?

Dini mövzular üzrə mütəxəssis Kənan Rövşənoğlu “Yeni Müsavat”a deyib ki, Qırğızıstan hakimiyyətinin bu təşəbbüsü müsəlmanlıq adına bir utancdır: “Məscidlərin sayının azaldılması və bu cür məhdudiyyətlər ölkənin müsəlman imicinə zərbədir. Lakin əgər dövlət məscid inşa edirsə, təbii ki, bu zaman müəyyən qaydalar tətbiq edə bilər. Bu, parlamentin və o xalqın seçimidir. Qırğızıstan demokratik ölkədir”.

Bizə gəlincə, müsahibimiz bildirib ki, qeyd olunan parametrlərdə bizdə məscid sayı çox azdır: “Ümumilikdə bizdə ölkə üzrə 2200-dən bir qədər çox məscid var. Onların bir qismi isə fəaliyyət göstərmir. Qalan hissəsi isə əksəriyyəti tarixi abidədir. Yəni ən azı 100 ildən çox yaşı var. Yəni sovet dövründən əvvəl inşa olunub. Bu ölçü ilə götürsək, ölkəmizdə yalnız Bakıda və Bakıətrafı bir neçə kənddə yaxın məscid ola bilər. Amma bunlar da dediyim kimi, tarixi abidədir. Ümumilikdə Azərbaycanda məscid sayı digər müsəlman ölkələrindən, hətta əhali sayına görə müsəlman olmayan ölkələrdəki müsəlman icmalarına görə azdır”.

Onun dediyinə görə, məsələn, Türkiyədə 80 minə yaxın məscid var: “Təxminən 1000 nəfərə bir məscid düşür. Bizdə isə ən yaxşı halda 5 min nəfərə bir məscid düşür. O da dediyim kimi, bir çoxu işləmir və ya tarixi abidədir. Bizdə böyük şəhərlərdə məscid sayı azdır, xüsusən də sovet vaxtı inşa olunmuş yaşayış kvartallarında məscid sayı azdır. Amma xalqımız buna da qane olur”.

İslamda məscidlər arasında müəyyən məsafənin olması barədə konkret bir dini hökm yoxdur. Qurani-Kərimdə və Sünnədə belə bir qaydanın olmadığı bildirilir. Əsas meyar budur ki, hər bir məscid insanlara xidmət etməlidir, fitnə-fəsada səbəb olmamalı, icmanın ibadət ehtiyacını qarşılamalıdır. Tarixən İslam şəhərlərində məscidlər ehtiyac əsasında, əhali sıxlığına görə salınıb. Məsələn, Bağdad, Dəməşq, Qahirə kimi şəhərlərdə onlarla məscid bir-birinə yaxın məsafədə fəaliyyət göstərib.

Dini mənbələrdə qeyd edilir ki, şəriətdə məscidlər arasında məsafə qoymaq zəruri deyil. Lakin bəzi fiqh alimləri, xüsusilə ikinci məscidin tikintisi zamanı fitnə yaratmamaq üçün “məscid zərurət əsasında olmalıdır” prinsipinə üstünlük verirlər. Yəni, əgər bir məscid insanların ehtiyacını qarşılayırsa və ikinci məscid sırf ayrı-seçkilik, fikir ayrılığı məqsədilə tikilirsə, bu “məscid-i dirar” kimi qiymətləndirilə bilər (Tövbə surəsi, 107-ci ayə).

Məlumat üçün bildirək ki, Azərbaycanda iki mindən çox məscid mövcuddur. Sovet İttifaqı dövründə respublikada cəmi 17 məscid fəaliyyət göstərib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1990-cı ildən Azərbaycanda minə yaxın məscid inşa olunub. Hazırda ölkədə 306 məscid dövlət tərəfindən tarixi abidə kimi qeydiyyata alınıb. İşğaldan azad olunmuş ərazilərdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 61 (8671) 12 aprel 2025

Aprel

## Bunları bilirsinizmi?

* Hər il Yer üzünə ildırımla 10 milyon ton azot gətirilir;
* Təxminən Yer kürəsinin 70%-i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır;
* Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib;
* 1 damla neft 25 litr suyu yararsız hala salır;
* Orta ölçülü aysberqin çəkisi təxminən 20 millyon tondur;
* Burnu silərkən oradakı təzyiq orta hesabla 8800 paskal olur;
* Sutka ərzində insanın ayağının həcmi 8 faiz dəyişə bilər;
* Dünyada birinci əczəxana Bağdadda açılıb;
* İnsan beyni 20 milyard sinir hüceyrələrindən təşkil olunub və gündə 96 milyon bit informasiya yadda saxlaya bilir. İnsan ölərkən təqribən 150 trilyon bit məlumat xatırlayır;
* İlk metro stansiya 1860-ci ildə Londonda açılıb;
* Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Willem Einthoven icad edib;
* Hərbi salamı sol əllə vermək bütün dünyada qadağandır;
* İndiyə qədər 1 aprel zarafatlarından 1000-ə qədər adam dünyasını dəyişib;
* Hər gün hava yollarından təqribən 10 milyon adam istifadə edir;
* Kəpənəklər dadı ayaqları ilə hiss edir;
* Fil tullana bilməyən yeganə məməlidir.



## Diyetik qida sağlamlıq üçün riskə çevrilə bilər

**Müəyyən qida əlavələrinin müntəzəm istehlakı 2-ci tip şəkərli diabet riskinin artmasına səbəb ola bilər. Bu qənaətə Parisin Sorbonna Universitetinin tədqiqatçıları gəliblər. Onlar 108 643 nəfərin məlumatlarını təhlil ediblər. Tədqiqatın nəticələri nüfuzlu "PLOS Medicine" elmi jurnalında dərc olunub.**

Səkkiz il ərzində iştirakçılar öz qidalanma vərdişləri, o cümlədən diyetik içkilər, desertlər, qəlyanaltılar və hazır yeməklər kimi ultra emal olunmuş qidalarda tez-tez rast gəlinən qida əlavələrindən istifadə barədə məlumat veriblər. Aparılan təhlillər göstərib ki, müəyyən qida əlavələrindən tez-tez istifadə edən şəxslərdə şəkərli diabetin inkişaf riski 8-13% daha yüksək olub. Bu əlavələrə əsasən süni dadlandırıcılar (aspartam, sukraloza, asesulfam-K), eləcə də məhsulun dadını, görünüşünü və saxlanma müddətini yaxşılaşdırmaq üçün istifadə olunan konservantlar, rənglədiricilər və emulqatorlar daxildir.

Məsələn, "Coca-Cola Zero" kimi şəkərsiz içkilər zərərsiz alternativ kimi təqdim edilsə də, onların tərkibində süni dadlandırıcılar olur. Tədqiqat bu maddələrin müntəzəm istifadəsi ilə maddələr mübadiləsinin pozulması arasında mümkün əlaqəni göstərir.

Alimlər vurğulayıblar ki, burada əsas məsələ ultra emal olunmuş qidaların tez-tez və uzun müddət ərzində qəbul edilməsinin kumulyativ təsiridir. Əldə edilən məlumatlar hələ birbaşa səbəb-nəticə əlaqəsini sübut etməsə də, qida əlavələrinin daimi istehlakı ilə bağlı narahatlıqları artırır.

# Avstraliyada qadın başqasının uşağını doğdu



Avstraliyada ekstrakorporal mayalanma (EKM) prosedurundan keçən qadına səhvən başqa bir embrion daxil edildiyi üçün başqasının uşağını dünyaya gətirib. Oxu.Az bu barədə BBC-yə istinadla xəbər verir. Səhvə "Monash IVF" klinikasının reproduktiv mütəxəssisləri yol veriblər. Müəssisənin baş direktoru Maykl Knaap faktı təsdiqləyib və üzr istəyib. O, jurnalistlərlə söhbətində xəstəyə başqa qadının embrionunun daxil edilməsinin insan amili ucbatından baş verdiyini təsdiqləyib.

## Stresi artıran altı növ məhsul



**Alkoqol, qızardılmış qidalar, kofein, rafinə edilmiş karbohidratlar, şəkər və duzluluq miqdarı yüksək olan məhsullar kortizol kimi stres hormonlarının ifrazını stimullaşdıra bilər. Oxu.Az-ın xəbərinə görə, bu barədə ABŞ-dən olan diyetoloq Şelli Bolls "WellnessPulse" nəşrinə verdiyi müsahibədə danışıb. Çoxsaylı araşdırmalar göstərir ki, düzgün olmayan qidalanma ilə stres bir-birinə birbaşa təsir göstərə bilər.**

Şelli Bollsun sözlərinə görə, rasionda yüksək şəkər miqdarına malik çoxlu bişmiş məmulatların, çörək və sənaye üsulu ilə hazırlanan şirniyyat və içkilərin olması qanda qlükoza səviyyəsinin artmasına səbəb olur. Qanda şəkər səviyyəsinin qeyri-sabitliyi, bəzi alimlərin fikrincə, qəzəb, narahatlıq və əsəbilik kimi əhvali-ruhiyyə pozuntularına yol aça bilər. Qlükozanın ilkin yüksəlişindən sonra səviyyənin kəskin şəkildə enməsi enerji çatışmazlığına səbəb olur. Bu da iş qabiliyyətini azaldır, gündəlik vəzifələrin yerinə yetirilməsini çətinləşdirir və nəticədə stres və narahatlığın artmasına gətirib çıxarır.

Diyetoloq onu da əlavə edib ki, qanda şəkər səviyyəsinin dəyişməsinə səbəb olan qidalar eyni zamanda, orqanizmdə iltihab proseslərini də gücləndirə bilər. Hər iki vəziyyət kortizol kimi stres hormonlarının artmasına səbəb olur. Rafinə edilmiş karbohidratlar (ağ çörək, makaron, un məhsulları) və alkoqol iltihab və şəkər dalğalanmalarının əsas səbəbkarları kimi göstərilir. Orqanizmdə ümumi iltihabi reaksiyalar, həmçinin duzlu, qızardılmış qidaların və kofeinin həddindən artıq istifadəsi zamanı da güclənə bilər. Əvəzində, toyuq və kəsmikdəki yağsız proteinlər, qoz-fındıq və balıqda olan faydalı yağlar, eləcə də liflə zəngin meyvə və tərəvəzlər iltihab əleyhinə təsir göstərərək stresin azaldılmasına kömək edə bilər.

## Paket çaydan istifadə edəndə bu səhvə yol verməyin

**Bir çoxları paket çaydan istifadə etdikdən sonra sudan sıxıb çıxarır. Bu vərdiş çox təhlükəlidir. Qalan çay yarpaqlarını torbadan stəkan içinə sıxdıqda, bioloqların fikrincə, çayın tərkibində olan çoxlu miqdarda taninlər orqanizmə daxil olur. Normal hədlər daxilində taninlər sağlamlıq üçün faydalıdır. Onlar mədə-bağırsaq traktının işini yaxşılaşdırır, qan damarlarına müsbət təsir göstərir və bədəndən toksinlərin çıxarılmasına kömək edir. Ancaq bu təsirə nail olmaq üçün güclü çayı çox miqdarda içmək lazım deyil. Minimum tanin tərkibi vəzifənin öhdəsindən gəlir. Amma bir paket çayda bunlar çoxdur və onu sıxmaqla insan tanin konsentrasiyasını artırır. Bu səbəbdən çayın dadı dəyişir və daha acı olur. Bu vərdiş səbəbindən diş minası sarıya çevrilir.**

## ABŞ-də "gələcəkdən gələn" şəxsin tələbi: 2154-cü ildə "doğulan" kişi hakimiyyətdən nə istəyib?




**ABŞ Hökumətinin Səmərəliliyi Departamenti (DOGE) işsizlik müavinətləri ilə bağlı inanılmaz fırıldaqçılıq hadisəsini üzə çıxarıb. Bu barədə departamentin "X" sosial şəbəkə hesabında rəsmi bəyanat verilib. Bildirildiyinə görə, 2154-cü ildə doğulduğunu iddia edən bir ABŞ-li ölkə rəhbərliyindən ona müavinət olaraq 41 min dollar ödənilməsini tələb edib.**

Lakin sürprizlər bununla bitməyib. DOGE işçiləri guya 2040-cı il və daha sonrakı illərdə doğulmuş vətəndaşlardan ümumilikdə 69 milyon dollar dəyərində daha 9 700 müraciət aşkarlayıblar. Bundan əlavə, yaşı 115-dən yuxarı olan şəxslərdən 59 milyon dollar məbləğində 24 500 müraciət müəyyən edilib. Ən şokedici fakt isə bir yaşdan beş yaşa qədər olan uşaqlar adından müavinət almaq üçün 28 min müraciət edilməsi olub. Tələblərin ümumi məbləği 254 milyon dollar təşkil edib. DOGE-nin rəhbəri İlon Mask vəziyyəti rişxənd ilə şərh edərək xatırladıb ki, hazırda yaşayan ən yaşlı ABŞ-li 114 yaşındadır.

"Əminliklə demək olar ki, yaşı 115 və daha yuxarı olan istənilən şəxs artıq vəfat etdiyinə görə işsizlik müavinəti alır", - deyə Mask qeyd edib. Xatırladaq ki, ABŞ Hökumətinin Səmərəliliyi İdarəsi 2025-ci ilin yanvarında ölkədə korrupsiya ilə mübarizə üçün müvəqqəti orqan kimi yaradılıb.

## Braziliyada ev heyvanları üçün taksi xidməti: Təkbaşına səfər edəcəklər




**Braziliyada Hamilton Taurino adlı şəxs ev heyvanları üçün taksi xidməti yaradıb. Bu barədə "Bored Panda" portalı məlumat yayıb. İndi heyvanlar sahibləri olmadan baytara və ya bərbərə gedə biləcəklər. Məlumata görə, qeyri-adi taksi ideyası Taurinonun ağlına dostunun itini baytara aparmağa razılıq verəcək sürücü tapa bilməyəndə gəlib.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500